Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

5
FEVRAL
2020-ci il
№ 20 (4151)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# PREZİDENT BANKLARIN «İPİNİ YIĞDI» - BÖLGƏLƏRDƏ ƏMLAK KREDİT GİROVU KİMİ QƏBUL OLUNACAQ

■ səh. 4 ■

Elman Rüstəmov bacarmadı, Prezident bunu edəcək - bankların faiz özbaşınalığına son qoyulur

■ səh. 4 ■

Azərbaycanın müstəqil siyasətinin əsaslarına yenidən tam izah verildi...

■ səh. 3 ■

Düşmən ordusunda artan xaos - Qarabağ münaqişəsinin həllini tezləşdirəcək tutarlı amil...

■ səh. 9 ■

Qarabağ məsələsinə ikili standartlarla yanaşmalar dünya üçün ciddi təhdid mənbəyinə çevrilir

■ səh. 6 ■

Ermənistan Baş nazirinin Konstitusiya Məhkəməsinə təzyiqləri Avropa strukturları üçün "görünməz" olub - eyni fakt Azərbaycanda olsaydı...

■ səh. 7 ■

Azərbaycanın mobil telefon bazarında Çin virusunun təsirləri...

■ səh. 14 ■

Lerikin kəndləri zülmət içində - işıq dirəkləri ağacdan, üstəlik, külək də aşırıb...

■ səh. 14 ■



## Xarici dövlətlər qarşısında gizli öhdəliyi olan deputatlığa namizədlər barədə də məlumatlar çıxır

■ səh. 8 ■





## Prezident hansı məmurlara xəbərdarlıq etdi...

■ səh. 3 ■

## Ali Attestasiya Komissiyasının ləğvi mövzusu ətrafında müzakirə dərinləşir

■ səh. 12 ■

## Barəsində foto-video qalmaqallar çıxmış namizədlər cəmiyyətin «çəkilin» çağırışlarına məhəl qoymur

■ səh. 5 ■

■ səh. 5 ■

Saatlının Hacıqasımlı, Kamallı, Naharlı, Məzrəli kənd sakinləri də 65-ci dairədən namizəd Əhliman Əmiraslanovu təkrarən deputat görmək istədilər



■ səh. 10 ■

Həqiqətən də regionumuzda Azərbaycan kimi ikinci ölkə varmı ki...



■ səh. 10 ■

Azərbaycanda sahibkar-işçi münasibətlərində yeni dövr başlayır - 8 saatdan artıq iş olmaz, müqaviləsiz iş olmaz və...



■ səh. 11 ■

Son 30 ildə Azərbaycan əhali artımına görə Qafqazın lider ölkəsinə necə çevrildi...



■ səh. 13 ■

Xaricdə dəfn edilmiş məşhur mühacirlərimizin məzarları üçün Azərbaycanda ayrıca qəbiristanlıq...



## Azərbaycan Cənubi Qafqazda hərbi gücünə görə liderlik edir

**Azərbaycan 2020-ci il "Qlobal atəş gücü" (Global Firepower Index) reytinqində 138 ölkə arasında 63-cü yeri tutub. "Trend"in məlumatına görə, bu nəticə ilə Azərbaycan Cənubi Qafqazda hərbi gücünə görə lider ölkə olub.**



Həmin reytinqdə Gürcüstan 93-cü, Ermənistan 112-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, "Qlobal atəş gücü" reytinqi tərtib olunarkən 50 fərqli amil nəzərə alınır. Buraya aviasiya, zirehli texnika, hərbi-dəniz qüvvələrinin sayı və gücü, eləcə də təbii ehtiyatlar, insan ehtiyatları, nəqliyyat və logistika imkanları daxildir.

## Rusiya Prezidenti Polad Bülbüloğlunu təbrik edib

**Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunu 75 illiyi münasibətilə təbrik edib. "Trend" bu barədə Kremlin rəsmi saytına istinadən məlumat verir.**



Təbrikdə deyilir: "Hörmətli Polad Bülbüloğlu, 75 illik yubileyinizlə əlaqədar ən səmimi təbriklərimi qəbul edin. Uzun illərdir ki, Siz ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin, məhsuldar əməkdaşlığın inkişafına mühüm töhfə verirsiniz. Əlbəttə ki, Rusiyada Sizin parlaq bəstəkarlıq, musiqiçi və artistlik istedadınızı yüksək dəyərləndirirlər, Sizin yaradıcılığınızı həqiqətən də sevirlər. Sizə ürəkdən sağlamlıq, xoşbəxtlik, rifah və uğurlar arzulayıram".

## Azərbaycan XİN Trampın "Əsrin müqaviləsi" planına münasibət bildirdi

**Fevralın 3-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İcraiyyə Komitəsinin xarici işlər nazirləri səviyyəsində fövqəladə iclası keçirilib.**

Xarici İşlər Nazirliyindən (XİN) baki-xeber.com-a verilən məlumata görə, iclas İsrail-Fələstin məsələsinə dair ABŞ Administrasiyasının "Əsrin müqaviləsi" adlandırılan sülh razılaşması ilə bağlı çağırılıb.

İclasda Azərbaycan nümayəndə heyətinə Xarici işlər nazirinin müavini Ramiz Həsənov rəhbərlik edib.

R.Həsənov müzakirələr zamanı çıxış edərək məsələyə dair Azərbaycanın mövqeyini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Nazir müavini Azərbaycanın Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirdiyini və Fələstin məsələsinin "iki dövlət prinsipi" əsasında ədalətli və hərtərəfli həllini dəstəklədiyini qeyd edib. Azərbaycanın bu məsələnin beynəlxalq hüquq və BMT qətnamələrinə əsaslanan "iki dövlət" həll prinsipinə sadiq olduğu qeyd olunub.

İclasın sonunda İƏT İcraiyyə Komitəsinin görüşünün yekunlarına dair birgə bəyanat qəbul olunub.

## Şanxay Əməkdaşlıq Təşkilatı Azərbaycanda parlament seçkilərini müşahidə edəcək

**Şanxay Əməkdaşlıq Təşkilatının müşahidəçilər missiyası Azərbaycan Xarici İşlər Nazirliyinin dəvətilə parlament seçkilərinə hazırlıq prosesini izləməyə başlayıb.**

Baki-xeber.com-un xəbərinə görə, missiyaya Təşkilatın Baş katibinin müavini Şerali Conon rəhbərlik edir.

Missiyanın tərkibinə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin qanunverici, icraedici və seçki orqanlarının nümayəndələri, həmçinin Təşkilatın Katibliyinin rəhbər şəxsləri daxildir.

Missiyanın işi seçki məntəqələrinin seçkiyə hazırlıq səviyyəsi, səsvermənin gedişi, səslərin sayılması prosesini müşahidə etmək, eyni zamanda səs vermiş seçicilər və namizədlər arasında sorğu keçirməkdən ibarətdir.

Şanxay Əməkdaşlıq Təşkilatının müşahidəçilər missiyası Bakıda və Abşeron yarımadasının digər yaşayış məntəqələrində, Sumqayıt, Şirvan şəhərlərində və ətraf ərazilərdə fəaliyyət göstərəcək.

Missiya fevralın 3-dən 10-dək fəaliyyətini davam etdirəcək.

# Prezident İlham Əliyev Vasif Talıbova "Şərəf" ordenini təqdim etdi

**Prezident İlham Əliyev fevralın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovu qəbul edib.**



Vasif Talıbov Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlət başçısına məruzə edərək, 2019-cu ildə Naxçıvanda sosial-iqtisadi, kənd təsərrüfatı, tikinti, turizm və digər sahələrdə qazanılan uğurlardan danışıb və bütün bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd edib.

Prezident İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə Vasif Talıbovu təbrik edərək, Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayıb, prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirib.

Bu ilin yanvar ayında Prezidentin Sərəncamı ilə Vasif Talıbov 60 illik yubileyi münasibətilə "Şərəf" ordeni ilə təltif edilib. Fevralın 4-də Prezident İlham Əliyev "Şərəf" ordenini Vasif Talıbova təqdim edib.

**Vasif Talıbov fəaliyyətinə verilən yüksək qiymətə görə dövlət başçısına minnətdarlığını bildirib.**

# Azərbaycanda Çin virusundan 12 nəfər ölüb?

**Azərbaycanın baş infeksionisti Cəlal İsayev özünü müxalifətçi adlandıran Elvin Abdullazadə adlı şəxsin Azərbaycanda 12 nəfərin koronavirusdan ölməsi ilə bağlı sosial şəbəkədə yazdığı məlumatlara münasibət bildirib.**




C.İsayev "Trend"ə açıqlamasında həmin məlumatı təkzib edərək bildirib ki, belə xəbərlərin yayılmasında məqsəd insanlar arasında ajiotaj yaratmaqdır:

"Azərbaycanda 12 nəfər koronavirusdan ölsə, belə sakitlik olar?! Heç mümkündürmü ki, onların birinin də olsa qohumu heç nə deməsin?! Bu məlumat tamamilə yalandır".

Baş infeksionist Azərbaycanda indiyədək koronavirusa yoluxma halının qeydə alınmadığını da deyib.

Mütəxəssis əlavə edib ki, koronavirusa yoluxma zamanı insanlarda müşahidə edilən ilkin əlamətlər kəskin respirator virus xəstəliklərindəki kimi olur:

"Bu zaman insanlarda zökəm əlamətləri - burun tutulma, asqırma, halsızlıq, hərarətin yüksəlməsi və s. olur. Əgər xəstəlik ağır gedişatlı olarsa, ağ ciyər çatışmazlığı baş verir, bu da sonda ölümə səbəb ola bilir. Amma bu o demək deyil ki, kiminsə boğazında qıcıqlanma varsa, o, koronavirusa yoluxub. Bu gün bu virus ölkəmizdə yoxdur və gətirilməsi ehtimalı da azdır".

C.İsayev koronavirusun sənaye malları vasitəsilə ölkəmizə gətirilməsini də mümkün saymayıb: "Bu virusun mənbəyi inək, qoyun, donuz, keçi, eləcə də it, pişik və s. ola bilər. Belə xəstə ev heyvanlarından alınan qida məhsullarından istifadə etdikdə virus insana keçə bilər. Lakin indiki virusun təhlükəliliyi ondan ibarətdir ki, virus insanlara hava-damcı yolu ilə keçir. Onun insanlara sənaye malları vasitəsilə keçirilməsi mümkünsüzdür".

Koronavirusun istiyə davamlı olmadığını söyləyən baş infeksionist bildirib ki, koronavirus 37 dərəcə istidə 15 dəqiqəyə, otaq temperaturunda isə 3-4 saata məhv olur. O, havalar istiləşdikcə bu virusa yoluxma halının azalacağını da nəzərə çatdırıb.

Qeyd edək ki, özünü müxalifətçi adlandıran Elvin Abdullazadə adlı şəxs sosial şəbəkədə Azərbaycanda 12 nəfərin koronavirusdan öldüyünü, lakin dövlət qurumlarının bunu gizlətdiklərini söyləyib. O, ölən şəxslərdən birinin hətta qohumu olduğunu iddia edir.

E.Abdullazadənin fikrincə, virus ölkəmizə Çindən gətirilən sənaye malları vasitəsilə yayılıb.

# Prezident hansı məmurlara xəbərdarlıq etdi...

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı bəzi məmurların sahibkarlardan qanunsuz tələb etməsinin yolverilməzliyinə toxunub:**

"Sahibkarlara çox böyük hərtərəfli dəstək göstərilir. Birincisi, Prezidentin dəstəyi. Mən dəfələrlə demişəm ki, Azərbaycan iqtisadiyyatının gələcəyi sahibkarlığın inkişafından asılıdır. Digər tərəfdən, icra edilmiş bütün infrastruktur layihələri. İndi təsəvvür edin, əgər rayonlarda işıq, yol olmasaydı, hansı sahibkar orada iş görə bilərdi. Qaz olmasaydı, hansı istixananı işlədə bilərdi. Ona görə bunlar dövlət tərəfindən edilibdir - yol da, elektrik də, qaz da, su da".

Prezident daha sonra bildirib ki, sahibkarlığın inkişafının qarşısını alan daha çox məmur özbaşınalığıdır: "Bundan əlavə, güzəştli kreditlər - dediyim kimi, aşağı faizlə 2 milyard manatdan çox vəsait ayrıldı. Fermerlərə subsidiyalar verilir, onlar torpaq vergisi istisna olmaqla, - o da cüzi rəqəmdir, - vergilərdən azaddırlar. Dövlət tərəfindən sənaye zonalarının, sənaye parklarının, infrastrukturun yaradılması. Təşviq mexanizmi təşkil edilib və digər stimulverici amillər tətbiq olunubdur. Yəni sahibkarlara çox böyük imkanlar yaradılıb. Ona görə sahibkarlardan da tələbimiz var, onlar dürüst olsunlar, təmiz işləsinlər, əyri yola getməsinlər, vergiləri gizlətməsinlər. Vergiləri tam ödəsinlər, vergilərdən başqa heç kimə, heç bir quruma, heç bir şəxsə bir manat pul verməsinlər. Çünki rüşvətxorluğun iki tərəfi var: alan və verən. İndi mən potensial rüşvət verənlərə deyirəm ki, dayandırın bunu. Əgər kimsə sizdən əsassız nəsə tələb edirsə, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, mərkəzi icra orqanlarına dərhal məlumat verin. Bu qətiyyən yolverilməzdir. Çünki sahibkarlığın inkişafının qabağını alan bir çox hallarda məmur özbaşınalığıdır. Məmurlar görən kimi haradasa iş başlayır, bəzi hallarda dərhal cumurlar ora, öz payını tələb edirlər, yaxud da ki, nəsə qoparmaq istəyirlər. Buna son qoyulmalıdır. Ona görə sahibkarlar vergini tam verməlidirlər. Çünki onların vergisi ölkəmizin yaşamasıdır, xalqımızın yaşamasıdır. Əlbəttə ki, vergi orqanlarında aparılan islahatlar da sahibkarlara böyük kömək göstərir. Çünki sahibkarlar indi bilirlər qaydalar nədən ibarətdir. Qaydalar da çox sadədir. Fəaliyyətini qanunvericiliyə uyğun qurmalıdırlar, əmək müqavilələri bağlamalıdırlar, işçiləri istismar etməməlidirlər".

Prezident konkret olaraq qeyd edib ki, bəzi məmurlar görən kimi hardasa iş aparılır, cumub oradan haqq tələb edirlər. Ölkə başçısı bu kontekstdə sahibkarlara mane olan hansı kateqoriya məmurları nəzərdə tutur?

***İlqar Hüseynli:** "Əyalətlərdə sahibkarlara daha çox mane olan icra strukturlarında çalışan məmurlardır"*



Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, müşavirə regionlarla bağlı keçirildiyi üçün, məsələyə məhz əyalətlərdə baş verənlərin kontekstində yanaşmaq lazımdır: "Rayonlarda baş verən proseslərlə bağlı biz mütəmadi araşdırmalar aparır, monitorinqlər həyata keçiririk. İnsafən demək lazımdır ki, regionlarda sahibkarlara paytaxtda oturan böyük məmurlar mane olmur. Bu heç onların marağını da kəsb etmir. Bilirsiniz ki, Azərbaycan regionlarının böyük əksəriyyəti aqrar sektorda fəaliyyət göstərir. Kənd təsərrüfatında çalışan sahibkarlar rayonlarda formalaşan monopolist sistemdən əziyyət çəkirlər. Məsələn, mən İmişli rayonu ilə bağlı bir faktı deyə bilərəm. Bu rayonun çox böyük əkin sahələri var. Həmin sahələrin böyük əksəriyyəti müxtəlif şirkətlər tərəfindən əkin sahəsi kimi icarəyə götürülüb. Bunların da çoxuna yerli məmurlar səviyyəsində nəzarət edilir. Həmin məmurlar suvarma ilə məşğul olan dövlət qurumuna təzyiq edirlər ki, lazım olan dövrdə suyu məhz onlara versinlər. Bunun da nəticəsində orta sahibkarların işi pozulur. Bu məsələyə xüsusi önəm vermək lazımdır. Vətəndaşların ən çox narazılığı məhz bundandır. Son zamanlar vergi orqanlarının işi şəffaflaşıb. Onlar sahibkarlardan yalnız qanun çərçivəsində fəaliyyət tələb edirlər. Polis və digər qurumlarla bağlı olan əvvəlki narazılıqlar tam minimuma enib. Əvvəl hansısa sahə müvəkkili onun ərazisində olan sahibkarlardan aylıq haqq alırdısa, artıq buna da son qoyulub. Əyalətlərdə sahibkarlara daha çox mane olan icra strukturlarında çalışan məmurlardır".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın müstəqil siyasətinin əsaslarına yenidən tam izah verildi...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı Azərbaycanın bu gün dünyada sayı o qədər də çox olmayan, tam müstəqil siyasət aparan ölkə olduğunu bildirib:**



"Müstəqil siyasət aparmaq üçün bir çox amillər olmalıdır - ölkələrin ərazisi, onların potensialı, ümumdaxili məhsulu, hərbi qüdrəti və s. Biz bilirik ki, dünyada güc mərkəzləri hansı ölkələrdir. Əlbəttə, Azərbaycan öz həcminə və coğrafi ərazisinə görə böyük ölkələrlə rəqabət apara bilməz, belə fikri də yoxdur. Ancaq buna baxmayaraq, müstəqil siyasət aparmaq üçün bizdə kifayət qədər imkanlar var. Bunların başlıcası xalqın dəstəyidir, bizim siyasətimizə göstərilən dəstək və etimaddır. Əlbəttə ki, iqtisadi göstəricilərimiz, siyasi arenadakı fəaliyyətimiz bizim gücümüzü artırır və Azərbaycan ildən-ilə daha da güclənir və güclənəcəkdir. Bizim ixracımız da, xüsusilə qeyri-neft sektorunda artıbdır, xarici ticarət dövriyyəsi də artıbdır. Bir sözlə, iqtisadi sahəyə aid olan bütün məsələlər öz həllini tapıb".

Göründüyü kimi, ölkə başçısı Azərbaycanın hansı amillərə əsaslanaraq müstəqil siyasət yürüdə bildiyinin konturları barədə ətraflı izahat verib. Prezidentin bu əsaslandırmasından hansı nəticələri çıxarmaq olar?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının bizim müstəqil siyasəti niyə yürüdə bilməyimizi əsaslandırmasında dərin məntiq var: "Müstəqillikdən sonrakı kiçik bir dönəm istisna olmaqla, sonrakı mərhələdə biz böyük inkişaf və quruculuq işləri aparmışıq. Görülən işlər haqqında bəlkə də saatlarla danışmaq olar. Ən önəmlisi ondan ibarətdir ki, bu müddət ərzində Azərbaycan bölgədə və dünyada özünü etibarlı tərəfdaş, dinamik inkişaf edən, dost ölkə kimi tanıtdıra bilib. Xoşniyyətli siyasətlə Azərbaycan bu gün dünyada özü üçün dostlar qazanıb. Tərəfdaşlarımızın, Azərbaycanla xoş münasibətlər qurmaq istəyənlərin sayı artır. Bizim siyasətimiz bütün sahələrdə xoşniyyətlidir. Biz əməkdaşlığın tərəfdarıyıq. Əməkdaşlıq üçün təkliflərimizi irəli sürürük. Biz istəyirik ki, bütün bölgədə sülh, əminamanlıq olsun. Bütün xalqlar mehriban qonşuluq şəraitində yaşasınlar. Ölkə daxilində hökm sürən sabitlik, inkişaf, xoşniyyətli siyasət və xoş ovqat bizi daha da gücləndirir. Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Bu bizim böyük üstünlüyümüz, xoşbəxtliyimizdir. Bu gün dövlətin qorunması üçün qoyulan əsaslar müstəqillik, suverenlik, demokratiya, bazar iqtisadiyyatı, sosial ədalət prinsipləridir. Güclü milli ideologiya, milli ruh bizə yol göstərən prinsiplərdir. Müstəqil olmaq, azad olmaq böyük xoşbəxtlikdir. Bizdən əvvəlki nəsillər əsrlər boyu müstəqillik eşqi, müstəqillik arzuları ilə yaşamışlar və həyatdan getmişlər. Amma bu müstəqilliyi görməmişlər. Bizim nəsil xoşbəxtdir. Biz nəinki müstəqilliyi görürük, biz müstəqilliyi möhkəmləndiririk. Bütün bunları təmin etmək üçün həm də müstəqil siyasət yürütməyi bacarmaq lazımdır. Azərbaycan hakimiyyətinin ən böyük uğuru budur ki, həmin siyasəti yürüdə bilir. Buna bəzən balanslı siyasət də deyirlər. Bütün bu balansın daxilində bizim milli maraqlarımızın önə çəkilməsi olur. Dünyanın güc mərkəzləri ilə biz bu tarazlığı qoruyub saxlaya bilmişik. Prezident doğru olaraq qeyd edir ki, bunun üçün həm də xalqdan böyük dəstək almaq lazımdır. Bu dəstək də var".

***Məhəmmədəli QƏRİBLİ***

# Prezident bankların "ipini yığdı" - bölgələrdə əmlak kredit girovu kimi qəbul olunacaq

**Fevralın 3-də "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfrans keçirilib. Konfransda iştirak edən ölkə başçısı İlham Əliyev banklarla bağlı bir neçə məsələyə toxunub.**

*"Rayon yerlərində əmlakın girov kimi qəbul olunmamasının əsas səbəbi əmlakın düzgün qiymətləndirilməməsidir"*

***Əkrəm Həsənov:** "Rayonlarda girov kimi qoyulan əmlakın hərracda satılması problemdir"*




O qeyd edib ki, rayonlarda və kənd yerlərində təklif edilən girov əmlakla bağlı problem yaşanır: "Rayon və kənd yerlərində təklif olunan girov əmlaklar bir çox hallarda banklar tərəfindən girov kimi qəbul edilmir. Onlar Bakıda girov əmlak istəyirlər. Buna son qoyulmalıdır. Burada heç bir ayrıseçkiliyə yol verməli olmaz. Ona görə aidiyyəti qurumlar bu məsələ ilə də ciddi məşğul olsunlar".

Maraqlıdır, rayon və kənd yerlərində banklar girov kimi əmlak qəbul etmirlər. Girov kimi qoyulacaq əmlakın niyə məhz Bakıda olmasına üstünlük verirlər?

Mövzu ilə əlaqədar bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənova müraciət etdik. O, "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, rayon yerlərində olan girovların banklar tərəfindən qəbul edilməməsi yolverilməzdir: "Banklar yalnız Bakıda olan əmlakın girov qoyulmasını istəyirlər. Niyə? Ümid edirik ki, bu sahədə problemlər həll olunacaq. Məsələ çox ciddidir və həll edilməlidir".

Həmsöhbətimiz onu da əlavə etdi ki, rayonlarda girov kimi qoyulan əmlakın hərracda satılması problemdir. Bunun iki səbəbi var: "İlk olaraq bildirim ki, bölgələrdə daşınmaz əmlakın satış qiyməti ucuz olur. Digər səbəb isə milli mentalitetlə bağlıdır. Rayon yerlərində girov qoyulan evin hərrac vasitəsilə öz həmkəndlisi tərəfindən alınması xoş qarşılanmır. Ancaq Bakıda belə bir hal yoxdur. Hərraca çıxarılan ev istənilən şəxs tərəfindən alına bilər".

Ekspert hesab edir ki, rayon yerlərində əmlakın girov kimi qəbul olunmamasının əsas səbəbi əmlakın düzgün qiymətləndirilməməsidir: "Məlumat üçün bildirim ki, ölkəmizdə əmlakı obyektiv qiymətləndirən şirkətlər azdır. Bu baxımdan qiymətləndirici şirkətlərin lisenziyalaşdırılmasına ehtiyac var".

**Ekspert onu da vurğuladı ki, girov kimi qoyulan əmlak kreditin qaytarılma mənbəyi kimi qiymətləndirilməməlidir. Kredit götürən şəxsin iş fəaliyyəti qiymətləndirilməlidir. Ancaq bizdə banklar yalnız əmlakı girov kimi qəbul edir. Bu isə düzgün deyil.**

*Günel CƏLİLOVA*

# Elman Rüstəmov bacarmadı, Prezident bunu edəcək - bankların faiz özbaşınalığına son qoyulur

**"Azərbaycan nadir ölkələrdəndir ki bütün bank əmanətləri dövlət tərəfindən sığortalanır. Bu, banklara edilən böyük dəstəkdir, güzəştdir, eyni zamanda, onların məsuliyyətini artırır. Əgər özəl banklar tərəfindən hər hansı bir sürpriz olarsa, onlar özündən küssünlər".**



***Pərviz Heydərov:** "Mərkəzi Bankın uçot dərəcəsi ilə kommersiya banklarının kreditləri arasında birbaşa əlaqə yoxdur, yaxud da olsa belə zəifdir"*

Bunu Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxış edərkən deyib.

Prezident çıxışı zamanı qeyd edib ki, iqtisadiyyat artdıqca, iqtisadi vəziyyət yaxşılaşdıqca, uçot dərəcəsi də aşağı düşür. Bu il də aşağı düşüb, təqribən 7 faizdən bir qədər çoxdur: "Əlbəttə ki, özəl banklar da faiz dərəcələrini aşağı salmalıdırlar. Çünki Mərkəzi Bank tərəfindən artıq qərar qəbul edildi, keçən il və bu il uçot dərəcəsi müntəzəm olaraq aşağı düşür. Bu proses davam etdirilir".

Qeyd edək ki, ölkə rəhbəri hər dəfə hökumətin hesabatı keçirilən də bank sistemində olan neqativlərə toxunur. Özəl bankların faiz dərəcəsini aşağı salmasının vacibliyi barədə fikir bildirsə də, banklar hələ də faiz dərəcələrini olduğu kimi saxlayırlar.

Məlumdur ki, bank sisteminin sağlamlaşdırılması ilə əlaqədar əlavə tədbirlər görülüb, dollarla olan kreditlər üçün 620 milyon manat vəsait cəlb olunub, Mərkəzi Bank uçot dərəcəsini 7 faizə salıb, amma kommersiya banklarında faiz dərəcələri aşağı salınmır. Çünki banklar yalnız öz mənfəətlərini güdürlər.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov qeyd etdi ki, banklarda faizlərin yüksək olması Mərkəzi Bankın resurslarının kommersiya banklarında azlığından irəli gəlir: "Kredit faizləri həmişə yüksək olub. Bu da bilavasitə biznes kreditlərinin təmin edilməsində ən mühüm və ciddi problem sayılıb. Təəssüflər olsun ki, Mərkəzi Bankın uçot dərəcəsi, yəni ümumi kreditlər üzrə qiymət səviyyəsinin dəyişdirilməsi siyasəti heç vaxt bizdə kredit faizlərinə ciddi şəkildə təsir göstərməyib. Xüsusilə də keçən və ondan əvvəlki ildən etibarən uçot dərəcəsinin aşağı endirilməsinə başlanıb. Hər dəfə 0.25 faiz dərəcəsində enmə olur. Keçən il 8 dəfə bu məsələyə baxılıb, 7-də uçot dərəcəsinin səviyyəsi aşağı salınıb. Bu il də bir neçə gün öncə uçot dərəcəsi 0.25 faiz endirilərək 7.25 səviyyəsinə çatdırıldı. Halbuki, 2015-ci ildə devalvasiya dövründə Mərkəzi Bank məcbur olub kredit siyasəti yeritmişdi və uçot dərəcəsini 15 faizədək saldırmışdı. Amma indi 2 dəfədən çox uçot dərəcəsinin endirilməsinə baxmayaraq, bankların verdiyi kreditlər üzrə son faiz dərəcələrinə diqqət yetirsək, görərik ki, çox cüzi azalma var. Bu onu göstərir ki, Mərkəzi Bankın uçot dərəcəsi ilə kommersiya banklarının kreditləri arasında birbaşa əlaqə yoxdur, yaxud da olsa belə zəifdir.

*"Banklarda faizlərin yüksək olması Mərkəzi Bankın resurslarının kommersiya banklarında azlığından irəli gəlir"*

Bu çox mənfi haldır. Əslində, dünya praktikasında bütün inkişaf etmiş ölkələrdə banklar üzrə kredit faizləri Mərkəzi bankın uçot dərəcəsinə əsaslanır. Bizdə isə əsaslanma yoxdur. Banklar arasında lazımi əlaqənin olmamağının səbəbi Mərkəzi Bankın resurslarının kommersiya banklarında az olmasıdır. Biz tələb ediriksə ki, bankların faizləri aşağı ensin, bu zaman Mərkəzi Bankın vəsaitləri kommersiya banklarının kredit verdiyi resurslarda 50-60 faizdən çox olmalıdır. Düzdür, hazırda bəzi bankların faizlərində enmə müşahidə edilir, amma bu çox zəif xarakter daşıyır. Biznes kreditlərinin verilməsi üçün hələ də faiz dərəcələri yüksəkdir".

*Günel CƏLİLOVA*

**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizəd, akademik Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Bu dəfə Ə.Əmiraslanov deputatlığa namizəd olduğu 65 saylı seçki dairəsinə aid olan Saatlı rayonunun Hacıqasımlı kəndində seçiciləri ilə görüşüb.**

# Saatlının Hacıqasımlı, Kamallı, Naharlı, Məzrəli kənd sakinləri də 65-ci dairədən namizəd Əhliman Əmiraslanovu təkrarən deputat görmək istədilər

***Kürdəmirli seçicilər:** "Əhliman Əmiraslanov həmişə seçicilərinin dərdinə şərik olub"*









Görüşdə çıxış edən akademik Əhliman Əmiraslanov Azərbaycanda son illər bütün sahələrdə müşahidə olunan inkişafdan söz açaraq, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində, respublikamızın bütün bölgələrində olduğu kimi, Saatlı rayonunda da sosial layihələrin həyata keçirildiyini, əhalinin sosial rifahının getdikcə yaxşılaşdığını bildirib.

Görüşdə Hacıqasımlı kənd sakinləri ilə yanaşı, qonşu Kamallı, Naharlı və Məzrəli kəndlərindən olan seçicilər də iştirak edib. Seçicilər Ə.Əmiraslanovun deputat olduğu ötən illər ərzində sakinlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə görülən işlərdən, hər hansı bir problemləri ilə bağlı deputata müraciət etdikdə dərhal lazımi köməklik göstərilməsindən danışaraq, növbəti çağırış parlamentdə də millət vəkili kimi məhz Ə.Əmiraslanovun onları təmsil etməsi arzusunda olduqlarını bildiriblər.

Ə.Əmiraslanov deputatlığa namizəd olduğu 65 saylı seçki dairəsinə aid olan Kürdəmir rayonunun Mehdili kəndində də seçiciləri ilə görüş keçirib. Bu görüşdə Mehdili kəndi ilə yanaşı qonşu Dayıkazımlı, Öyləqulu, Axtaçı və Qarabucaq kəndlərinin sakinləri də iştirak edib.

Görüş zamanı Əhliman Əmiraslanov Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycandakı iqtisadi inkişaf, dövlətin daxili və xarici siyasətində qazanılan uğurlardan bəhs edib. O bu uğurların davamlı olması istiqamətində atılan addımlardan söz açaraq, Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması üçün görülən tədbirlərin davamlı olacağına əmin olduğunu bildirib.

Sonra seçicilər çıxış edərək məmnuniyyətlə qeyd ediblər ki, bu illər ərzində Əhliman Əmiraslanov həmişə seçicilərinin dərdinə şərik olub, dəfələrlə ağır xəstəliyi olan seçicilərin cərrahi əməliyyatını təşkil edib, köməyini əsirgəməyib.

**Görüşdə seçicilər birmənalı olaraq qarşıdan gələn parlament seçkilərində də öz deputatları Əhliman Əmiraslanova səs verəcəklərini bildiriblər.**

**Artıq deputatlığa namizədlərin 9 fevralda Milli Məclisə keçiriləcək növbədənkənar parlament seçkiləri çərçivəsində seçkiöncəsi təbliğat-təşviqat kampaniyası finişə yaxınlaşmaqdadır. Seçki gününə artıq sayılı günlər qalıb.**

# Barəsində foto-video qalmaqallar çıxmış namizədlər cəmiyyətin "çəkilin" çağırışlarına məhəl qoymur

***Məhərrəm Zülfüqarlı:** "Belə vəziyyətlə üzləşən namizədin özünə hörməti olsa, o zaman namizədlikdən imtina edər"*



Bu müddət ərzində deputatlığa namizədlər millət vəkili mandatına sahib olmaq üçün seçicilərlə görüşərək, seçkiöncəsi məram və proqramlarını açıqlayıblar. Hələ qarşıda 5 gün var və deputatlığa namizədlər bu qısa müddətdə seçicilərlə görüşlər keçirərək, qələbələri uğrunda mübarizəni davam etdirirlər.

Ancaq o da var ki, heç də bütün namizədlər cəmiyyət tərəfindən qəbul olunmur. Xüsusən də əvvəl deputat olmuş bəzi şəxslərin yenidən namizədliklərini irəli sürmələri cəmiyyət tərəfindən hiddətlə qarşılanır. Bu bəzi deputatların seçicilərlə görüşmək istəyərkən yaşanan insidentlərdə özünü göstərir. Faktiki olaraq, bəzi belə iddialı namizədlərin görüşlərində rüsvayçılıq yaşanır. Seçicilər açıq-aşkar onları boykot edərək fitə basırlar. Elə namizəd var ki, onu kənddən qovurlar və bu səbəbdən, ümumiyyətlə, vətəndaşlarla görüş keçirə bilmir. Bununla bağlı rüsvayçı xarakterli video və fotolar sosial şəbəkələrdə yayılır. Görünən odur ki, cəmiyyətdə belələrinin yenidən deputat olması ilə bağlı çağırışlar var. Açıq-aydın görünür ki, vətəndaşlar belələrinin yenidən deputat olmasını istəmirlər.

Maraqlıdır, bu yöndə ictimai çağırışların səslənməsinə baxmayaraq, niyə belələri namizədliklərini geri götürmürlər? Prosesdən niyə geri çəkilmirlər?

*"Yəqin beləleri deputatlığın bəhrəsini o qədər çox görüblər ki..."*

Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, belə namizədlərin ictimai çağırışlara məhəl qoymamaması bir sıra amillərlə bağlıdır: "Əvvəla belə münasibət həmin deputatların fəaliyyəti ilə bağlıdır. Hansı ki, vaxtında xalqın içində olsaydılar, onların sosial problemləri ilə maraqlansaydılar, belə biabırçı vəziyyətlə üzləşməzdilər. Ona görə də indi xalq tərəfindən bu cür cəzalandırılırlar. Hesab edirəm ki, belə vəziyyətlə üzləşən namizədin özünə hörməti olsa, o zaman namizədlikdən imtina edər. Bu yöndə səslənən çağırışları nəzərə alar.

Elə insan var ki, bir söz onun xətrinə dəyir və buna görə hansısa iddiadan geri çəkilir. Elə insan da var ki, ambisiyaları üzündən kreslodan ikiəlli yapışır. Yəqin beləleri deputatlığın bəhrəsini o qədər çox görüblər ki, bu səbəbdən mandatdan əl çəkmək istəmirlər. Buna ancaq belə yanaşmaq olar. Yoxsa, bir belə hengamədən sonra təzədən deputat olmaq istəməzdilər. Görə-görə ki, onların namizəd olmasına ciddi ictimai qınaq var, yenə də deputat olmaq həvəsi ilə yaşayırlar".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ məsələsinə ikili standartlarla yanaşmalar dünya üçün ciddi təhdid mənbəyinə çevrilir

**Mövcud vəziyyətin təhlili göstərir ki, bu gün dünya miqyasında bir çox münaqişələrin həllinin uzanmasına ikili standartların tətbiqi birbaşa təsir edir. Dağlıq Qarabağ münaqişənin indiyə qədər öz həllini tapa bilməməsinin əsas səbəblərindən biri məhz bu problemin BMT və ATƏT kimi beynəlxalq təşkilatların, regionda təsir gücünə malik ölkələrin ikili standartlar siyasətindən əl çəkməməsidir.**

Qeyd edək ki, Avropa Şurası da ərazi bütövlüyü məsələsində birmənalı şəkildə Azərbaycanın yanında olmalı olmasına baxmayaraq, bu səpkidə indiyə qədər Ermənistana qarşı təsirli addımlar atmayıb. Halbuki, qurumun belə məsələlərdə bütün üzv ölkələr, o cümlədən də Azərbaycan qarşısında öhdəliyi var. Lakin ötən zaman kəsiyi bu öhdəliyə Avropa Şurası tərəfindən heç də əməl olunmadığını göstərir.

Sözügedən məsələ bu günlərdə Vaşinqtonda "Demokratiyanı Müdafiə Fondu" Analitik Mərkəzinin keçirdiyi müzakirələrdə də xüsusu diqqət mərkəzində yer alıb. Burada diqqət ilk növbədə ona yönəlib ki, uzun sürən münaqişələrə cəlb edilmiş ərazilər barəsində siyasətin işlənib hazırlanması hökumətlərin, şirkətlərin və qeyri-hökumət təşkilatlarının daimi problemidir. Dünyada xeyli mübahisəli ərazi və işğal zonası olduğuna görə hər hansı bir münaqişə barəsində siyasətin işlənib hazırlanması zamanı belə bir sual ortaya çıxır: başqa münaqişələrə də analoji siyasət tətbiq edilə bilərmi? Müxtəlif növ siyasətlərin yeridildiyi yerdə sual yaranır: bu fərqlər hansı prinsip üzərində qurulur, yaxud hansı məqsədləri güdür?

Ekspertlər bildirib ki, ərazi münaqişələri bütün tarix boyu olub. Lakin əsas prinsipləri sərhədlərin toxunulmazlığı və onların dəyişdirilməsi üçün güc tətbiqinin yolverilməzliyi olan Birləşmiş Millətlər Təşkilatının yaradılması uzun sürən münaqişələrin çoxalmasına gətirib çıxarıb. Əvvəllər işğal edilmiş ərazi üzərində uzunmüddətli nəzarət bu ərazi üzərində üstünlüyü olan dövlətin iddialarının qəbul olunmasını mümkün edirdi. Hazırda BMT belə iddiaların qəbul edilməsinə mane olur, amma əvvəlki kimi status-kvoya əhəmiyyətli dərəcədə təsir göstərə bilmədiyinə görə belə əraziləri uzun müddət qeyri-müəyyən vəziyyətdə saxlayır. Problem təkcə bunda deyil ki, BMT, Birləşmiş Ştatlar, Avropa İttifaqı, özəl korporasiyalar və QHT-lər son dərəcə məntiqsiz hərəkət edirlər. Məsələ burasındadır ki, onların siyasəti selektivdir və çox vaxt qərəzli münasibəti üzə çıxarır. Bu da beynəlxalq münasibətlər sistemində daha dərin problemlərin olduğunu göstərir.

Mərkəzi Asiya və Cənubi Qafqaz İnstitutunun eksperti Svante Kornel hesab edir ki, hazırda bəzi işğalçı dövlətlər işğal edilmiş ərazilərə nəzarət etdiklərini həmin ərazilərdə oyuncaq rejimlər yaratmaq vasitəsilə pərdələməyə çalışırlar: "Rəsmi İrəvanın Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda qurduğu oyuncaq rejim bunun bariz nümunəsidir. Bu oyuncaq rejimlər beynəlxalq birlik tərəfindən tanınmasa da, onların muxtariyyətinin imitasiyası işğalçı dövlətə fayda gətirir. Bundan fərqli olaraq, ərazi mübahisəsində öz bilavasitə rolunu etiraf edən ölkələr, bir qayda olaraq, işğal edilmiş ərazilərə oyuncaq rejim yaratmaq vasitəsilə nəzarət edən dövlətlərdən daha çox xarici təzyiqlə üzləşirlər. Azərbaycanın Dağlıq Qarabağ regionunun və ətraf rayonlarının işğalına gəldikdə isə, bütün azərbaycanlı əhali həmin ərazilərdən qovulub". Digər amerikalı ekspert Brenda Şaffer də bildirir ki, 700 mindən çox etnik azərbaycanlı erməni silahlı qüvvələri tərəfindən öz doğma yurd-yuvasından didərgin salınıb, onların əmlakı isə bu günədək istifadə olunur: "Ermənistan-Azərbaycan münaqişəsi 1988-ci ildə Ermənistanın Azərbaycana ərazi iddiaları, hələ Sumqayıt hadisələrindən əvvəl azərbaycanlıların Ermənistandan qovulmasının birinci fazası ilə başlayıb. BMT Təhlükəsizlik Şurası 1993-cü ilin aprel-noyabr aylarında Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalını pisləyən, erməni silahlı qüvvələrinin həmin ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını və məcburi köçkün azərbaycanlıların doğma torpaqlara qaytarılması üçün şəraitin yaradılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələr qəbul edib. BMT Baş Assambleyası 2008-ci ilin martında 62/243 nömrəli qətnamə qəbul edərək, beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə olunmuş mövqeyini bir daha təsdiq edib. BMT Təhlükəsizlik Şurasının bu qətnamələri əsasında müxtəlif ölkələrin qanunverici orqanları və beynəlxalq təşkilatlar tərəfindən erməni işğalçı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən onlarla qətnamə qəbul edilib. Amma bu qətnamələrə əməl edilmir. Burada Ermənistana qarşı konkret təzyiq mexanizmlərinin olmaması, ikili standartların tətbiqi də öz sşzünü deyir". Ekspertlərə görə, Dağlıq Qarabağ münaqişəsinin indiyədək ədalətli şəkildə öz həllini tapmamasında dünyada söz sahibi olan, dünya siyasətinə təsir edən, beynəlxalq hüququn həyata keçirilməsinin təminatçısı olan bütün dünya ictimaiyyəti birbaşa məsuliyyət daşıyır. Ən maraqlısı da odur ki, ATƏT-in Minsk Qrupunun hər üç həmsədri olan Rusiya, ABŞ və Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvləri kimi Qarabağ qətnamələrinə səs verib. Lakin əməldə öz iradələrini ortaya qoyub işğalçıya qarşı real təzyiqləri işə salmırlar. Yaranmış vəziyyətdə münaqişənin dinc şəkildə nizamlanması da müşkülə çevrilir. Bu müharibə riskini artırır. Qarabağda başlanacaq yeni savaş isə dünya nizamı üçün də ciddi təhdid sayılır.

Digər tərəfdən, münaqişənin həllinin uzanması başqa rakurslardan da təhlükə mənbəyidir. Məsələn, dünya dövlətlərinə də sirr deyil ki, işğal olunmuş Dağlıq Qarabağ ərazisi narkotik tranziti, narkotiklərin becərilməsi, satılması, transmilli cinayət üçün nəzarətsiz ərazi kimi istifadə olunur. Xatırlatmaq yerinə düşərdi ki, Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması nəticəsində ölkənin 132 kilometrlik sərhədi nəzarət olunmayan əraziyə çevrilib. Bu da erməni tərəfinə həmin ərazilərdən öz cinayət məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaradır. Əfqanıstan-İran-Dağlıq Qarabağ marşrutu üzrə ermənilər uzun müddətdir ki, narkotik maddələrin daşınmasını həyata keçirir. Ərazilərə nəzarət edilməməsi və beynəlxalq qurumların da bu istiqamətdə müvafiq addımlar atmaması isə problemi daha da dərinləşdirir, ermənilərin qeyd olunan səpkidə fəaliyyətinin genişlənməsinə rəvac verir. Digər tərəfdən bu, transmilli cinayət üçün nəzarətsiz ərazi kimi istifadə edilən ərazilərin əslində dünya üçün də təhdid mənbəyi olduğunu göstərir. Çünki buradan daşınan narkotik maddələr Avropa, hətta ABŞ-a qədər gedib çıxır. Eyni zamanda Qarabağdan daşınan narkotik maddələr Rusiyada geniş həcmdə realizə olunur. O da məlumdur ki, işğal olunmuş Dağlıq Qarabağ bölgəsində narkotik laboratoriyalar fəaliyyət göstərir və burada daha təhlükəli narkotik maddələr də hazırlanır. Bu mənada, məsələyə beynəlxalq miqyasda reaksiya verilməsi də olduqca zəruridir. Amma bu reaksiya müşahidə olunmur və dünya üçün Qarabağ təhlükə mənbəyi olaraq qalmaqda davam edir. Daha bir təhlükəli məqam isə narkotik maddələrin dövriyyəsindən əldə olunan gəlirlərin harada istifadə olunmasıdır. Araşdırmalar göstərir ki, həmin o qanunsuz dövriyyədən əldə olunan gəlirlər separatizmin, terrorizmin daha da geniş miqyasda yayılmasına xidmət göstərir. Bu səbəbdən də, tək Azərbaycan deyil, qonşu dövlətlər, eləcə də beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti narahatlığını ifadə edərək bu istiqamətdə daha ciddi tədbirlər həyata keçirməlidir. İndilikdə isə fakt budur ki, məhz ermənilərin sayəsində işğal altındakı ərazilər terrorçular üçün çox cəlbedici məkanlardan birinə çevrilib. Məsələn, sirr deyil ki, ermənilərin sayəsində PKK terror təşkilatının təmsilçiləri vaxtaşırı Qarabağa gəlir. Ən əsas amillərdən biri odur ki, əraziyə gələn terrorçular burada həm reabilitasiya keçir, həm də hazırlıqlarını artırırlar. Bununla onlar daha böyük təhlükə mənbəyinə çevrilirlər. Amma ən böyük təhlükə terrorçuların burada fəaliyyətinə şərait yaradan Ermənistan və onun hələ də davam etdirdiyi işğal siyasətidir. Göründüyü kimi, bu siyasət təkcə Azərbaycan yox, bütün region, Qərb, MDB ölkələri üçün də böyük təhlükəyə çevrilib. Bu mənada, yaranmış təhdidlərin miqyası vaxtaşırı olaraq Azərbaycan tərəfindən dünya ictimaiyyətinin, müvafiq beynəlxalq təşkilatların, dövlətlərin diqqətinə çatdırılır. İndi dünya ictimaiyyəti də buna qarşı qətiyyətli tədbirlər görməlidir. Bunlar dünyanın öz təhlükəsizliyi üçün olduqca mühümdür.

Indilkdə isə Azərbaycan münaqişənin həlli ilə bağlı prinsipial mövqe ortaya qoyub. Bu mövqe ondan ibarətdir ki, işğal olunmuş torpaqlarımız azad edilməli, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı və məcburi köçkünlər öz yurdlarına qayıtmalıdır. Bu fonda Qarabağ münaqişəsi, ədalətli həllini tapmaqla yanaşı, dünya üçün də təhdid mənbəyi olmaz. Həmin təhdidin aradan qaldırılması üçün ikili standartlar siyasətinin də sonu çatmalıdır. Yalnız bundan sonra Cənubi Qafqaz, eləcə də MDB, Qərb dünyası böyük bir təhlükə mənbəyini özləri üçün də aradan qaldırmış olar. Əks təqdirdə konflikt onlar üçün də daim təhdid yaradacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistan Baş nazirinin Konstitusiya Məhkəməsinə təzyiqləri Avropa strukturları üçün "görünməz" olub - eyni fakt Azərbaycanda olsaydı...

**Bu gün Ermənistanda Baş nazir Nikol Paşinyanla Konstitusiya Məhkəməsinin sədri Hrayr Tovmasyan arasındakı mübarizə açıq mübarizə mərhələsinə qədəm qoyub. İş burasındadır ki, Nikol Paşinyan bütün rəqiblərini inzibati rıçaqlar hesabına ram etmək istəyir.**

Ona tabe olmayanlara cinayət işləri açdırır, hətta ən tanınmış şəxsləri həbsə salmaqdan belə çəkinmir. Paşinyanın ram edə bilmədiyi şəxslərdən biri də ölkənin Konstitusiya Məhkəməsinin sədridir.

Bu günlərdə N.Paşinyanın H.Tovmasyan haqqında gedən bir videomaterialı "Facebook" səhifəsində paylaşması problemi daha da dərinləşdirib. Konstitusiya Məhkəməsinin sədri buna görə Ermənistanın İctimai Televiziyasını və Baş nazirin özünü məhkəməyə vermək niyyətindədir. Qeyd edək ki, 2019-cu ilin dekabrında H.Tovmasyana qarşı onun hələ 2013-2018-ci illərdə ədliyyə naziri olarkən vəzifə səlahiyyətlərindən sui-istifadə etməsilə bağlı ittiham irəli sürülüb. Konstitusiya Məhkəməsinin sədri ona qarşı siyasi təqib aparıldığını söyləyir.

Erməni politoloqları və başqa nüfuzlu şəxslər Tovmasyana edilən hücumların kökündə siyasi məqsədlərin durduğunu deyirlər. Onların sözlərinə görə, həmin məhkəmənin digər əməkdaşı sayılan Norayr Panosyana qarşı açılan cinayət işi də Paşinyanın sifarişi ilə həyata keçirilib və məqsəd Konstitusiya Məhkəməsinin sədrini istefaya göndərməkdir. Erməni politoloqlarından birinin sözlərinə görə, Ermənistan hakimiyyətində təkcə özünü görən N.Paşinyan dövlətin maraqlarından irəli gəlməyən, təkcə öz hakimiyyətinin maraqlarına xidmət edəcək tərkibdə Konstitusiya Məhkəməsini yaratmaq istəyir. Bundan başqa, erməni politoloq Konstitusiya Məhkəməsinə qarşı mübarizənin əsas səbəblərindən biri kimi konvensiyaların ratifikasiya edilməməsi qorxusunun olduğunu da istisna etmir.

Görünən budur ki, Paşinyan həm də Ermənistanda məhkəmələrin müstəqil olmasını istəmir. Ölkənin daxilində Paşinyanın addımlarına etirazlar olsa da, beynəlxalq arenadan biz lazımi reaksiyaların verildiyinin şahidi olmuruq. Xüsusilə də ölkənin üzvü olduğu Avropa Şurası kimi qurum bu açıq hərcmərcliyə reaksiya vermir. Biz dəfələrlə bu cür məsələlərdə Azərbaycana qarşı ikili standartların tətbiq edildiyinin şahidi olmuşuq. Azərbaycanda xırda bir qanun pozuntusu olan kimi həmin dəqiqə Avropa strukturları siyasi məzmunlu bəyanatlar verirlər. Hətta xırda faktları əllərində rəhbər tutaraq, Azərbaycanda demokratiyanın olmadığına dair fikir bildirirlər, vəziyyətin tezliklə düzəldilməsinə dair ultimativ tələblər irəli sürürlər. Bu gün Ermənistanda birbaşa Baş nazirin diqtəsi və iştirakı ilə baş verən proseslərə diqqət edin.



Onun bütün rəqiblərinə qarşı hüquqi müstəvidə cinayət işləri açılır, hətta bir çoxu həbs edilir. Ermənistanda Paşinyana tabe olmayan, son alınmaz qala kimi xarakterizə olunan Konstitusiya Məhkəməsinin üzvləri və rəhbərinə qarşı total hücum həyata keçirilir, amma bir dənə də olsun Avropa strukturunun səsi çıxmır.

Bunun bir adı var, qərəz. Paşinyanın bu əməllərinə görə hətta Ermənistana sanksiya da tətbiq etmək olar. Adam özünü açıq şəkildə diktator kimi aparır, ancaq Avropa strukturları, nədənsə, ona sığal çəkməklə məşğuldurlar.

***Məhəmmədəli QƏRİBLİ***

# İrəvanda Rusiya səfirinə qarşı yeni təqib kampaniyası başladı - səbəb televiziya məsələsidir

**Ermənistan KİV-nin verdiyi məlumata görə, Rusiyanın həmin ölkədəki səfirliyi bu dövlətin Milli Televiziya və Radio Komissiyasının (CTR) sədri Tiqran Hakobyan tərəfindən xarici ölkə kanallarının yayımının məhdudlaşdırılmasına dair fikirlərinə münasibət bildirib.**

T.Hakobyan yanvarın 29-da keçirilən mətbuat konfransında bu fikirlərini, əcnəbi kanallar tərəfindən mövcud qaydalar pozularsa, əllərində onlara təsir mexanizminin olmaması ilə əsaslandırıb. O bu mövqeyini Rusiya səfirliyinə çatdırdığını, qarşı tərəfin razılaşdığını qeyd edib. Bununla bağlı Rusiya səfirliyi "Facebook"dakı səhifəsində səfirin sözügedən məsələ ilə bağlı razılıq bildirməsi barədə CTR sədrinin şərhini təəccüblə qarşıladıqlarını açıqlayıb.

Qeyd edək ki, Ermənistanın rəqəmli yayın zərfinə 27 kanal, o cümlədən Rusiyanın 4 kanalı və ABŞ-ın bir (CNN) kanalı daxildir. Rusiya səfirliyinin bu məsələyə etirazına Ermənistandan kəskin reaksiya verilir. Hətta bunu Rusiyanın mədəni şəkildə Ermənistanı işğal etmək niyyəti kimi də qəbul edirlər. Bu faktın özü Rusiya ilə Ermənistan arasındakı münasibətlərin daha da gərginləşdiyinə bir sübut sayıla bilərmi?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, baş verənləri Rusiya ilə həmin ölkə arasındakı münasibətlərin gərginləşməsi kimi anlamaq olar: "Əvvəlcə nəyin baş verdiyinə diqqət edək. Ermənistan Milli Televiziya və Radio Komissiyasının sədri Tiqran Hakobyan bəyanatla çıxış edərək milli tezliklərdə yayılan xarici telekanalların yayımının dayandıracağını bildirib. Əlbəttə, bu bəyanatı Rusiya bir qədər də siyasi qərar kimi qəbul edib. Buna görə də Rusiyanın həmin ölkədəki səfirliyi məsələyə dərhal reaksiya verib. Hakobyan fikrini onunla əsaslandırıb ki, milli tezliklərdə yalnız dostlar deyil, onlarla münasibətləri yaxşı olmayan ölkələr də yayımlar edir. Ortaya maraqlı nüans çıxır: Ermənistan teleradio sahəsinə tətbiq etdiyi qadağanı bununla əsaslandırırsa, onda Rusiyanın adını o siyahıdan çıxara bilərdi. Amma görünən budur ki, Rusiya bu qadağanın episentrinə düşür və bu təsadüfi deyil. Rusiya üçün onun kanallarının məhz milli tezliklərdə yayılması böyük önəm kəsb edir. Bu səbəbdən də qadağaya siyasi bəyanatla cavab verir. Görünən budur ki, Ermənistan qərarında israrlıdır. Belə olacağı təqdirdə, bu, iki ölkə arsındakı gərginliyi daha da artırmış olacaq. Rusiya səfirinə edilən hücumların kökündə məhz bu amilin dayandığına qəti şübhə yoxdur".

***Hatəm Cabbarlı:*** *"Belə olacağı təqdirdə, bu, iki ölkə arasındakı gərginliyi daha da artırmış olacaq"*



***Məhəmmədəli QƏRİBLİ***

**Parlament seçkilərinin təbliğat-təşviqat dönəmində maraqlı hallarla rastlaşırıq. Artıq bir neçə namizədlə bağlı ortaya konkret faktlar qoyulub ki, onların xarici ölkələr qarşısında öhdəlikləri var və həmin adamlar millət vəkili seçilə bilməzlər.**



# Xarici dövlətlər qarşısında gizli öhdəliyi olan deputatlığa namizədlər barədə də məlumatlar çıxır

***Mehman Muradlı:** "Onların arasında elə vəzifələr var ki, təqaüdə çıxanda belə öhdəlik şəxsin üzərində olur"*

Biz mövzunu fərdiləşdirmək istəmirik. Ancaq bu məsələyə ümumi kontekstdən yanaşıb, bilmək istəyirik, xarici ölkələr qarşısındakı öhdəlik necə müəyyən olunur, bununla bağlı hansı hallar üzə çıxmalıdır və Azərbaycan qanunvericiliyi belə şəxslərin millət vəkili olmasına imkan verirmi?

Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bütün bunlar qanunvericilikdə öz əksini tapıb: "Seçki dairəsi üzrə namizədləri siyasi partiyalar, siyasi partiyaların blokları, həmin seçki dairəsində daimi yaşayan, seçki hüququ olan Azərbaycan Respublikasının vətəndaşları irəli sürə bilərlər.

Namizəd öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan seçicilər tərəfindən irəli sürülə bilər, o şərtlə ki, ərazisində namizədin dəstəklənməsi üçün zəruri olan imzaların yığıldığı və namizədin qeydə alınmasının nəzərdə tutulduğu müvafiq seçki komissiyasına bu barədə bildiriş göndərilsin.

Namizəd və ya namizədi irəli sürən seçicilərin təşəbbüs qrupu bu barədə Dairə Seçki Komissiyasına (DSK) yazılı bildiriş verir. Bildirişdə namizədi irəli sürən hər bir təşəbbüsçünün və namizədin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, bundan başqa, irəli sürülən namizədin əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda fəaliyyət növü) göstərilməlidir.

Namizəd, eyni zamanda, seçkili vəzifəyə seçiləcəyi halda həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyinə dair yazılı öhdəliyi olan ərizə də verir. Namizəd öz ərizəsinə siyasi partiyaya mənsubiyyəti barədə təsdiq olunan sənəd əsasında məlumatları daxil edə bilər.

DSK təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır və namizədə, onun səlahiyyətli nümayəndəsinə namizədliyin bu dairədən irəli sürülməsini təsdiq edən qərar təqdim edir. DSK təqdim olunmuş sənədlərin qəbul edilməsindən imtina edə bilməz".

Ekspertin sözlərinə görə, dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq, hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir: "İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağana əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılmasına və namizədin qeydiyyatından, qeydə alınmış namizədlərin qeydiyyatından imtina üçün əsas ola bilər".

Hüquqşünasın sözlərinə görə, bir sıra müddəalar var ki, onlara əsasən, şəxs millət vəkili seçilə bilməz: "İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilə bilməzlər".

Göründüyü kimi, başqa ölkələr qarşısında öhdəliyi olan şəxslərin millət vəkili olması bizim qanunvericiliklə qadağandır. Bunun da yaranması üçün hallar müəyyən edilib. Məsələn, başqa ölkədə müəyyən vəzifələr daşımış və daşıyan şəxslər. Onların arasında elə vəzifələr var ki, təqaüdə çıxanda belə öhdəlik şəxsin üzərində olur. Belə şəxslərin gəlib deputat olmaq istəməsi yalnız saxtakarlıqla mümkün ola bilər ki, bunun da üstü açılsa, məsuliyyət yaradır. Amma faktı sübuta yetirmək üçün ortaya dəlil qoyulmalıdır, yalnız sözə görə şəxsin namizədliyi ləğv edilə bilməz.

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycan beynəlxalq arenada Dağlıq Qarabağ konfliktinin nizama salınması ilə bağlı irəliləyiş əldə edən kimi dünyadakı erməni lobbisi və onun təsiri altında olan mərkəzlər hərəkətə keçir.**




# Almaniyada deputatın Azərbaycanla rüşvətə bağlanması - Qarabağ məsələsində azacıq irəliləyiş və erməni lobbisinin demarşı...

Artıq Ermənistan KİV-ləri Avropa Parlamentində Azərbaycanın xeyrinə lobbiçilik etmiş deputatlarla bağlı yayılan məlumatları həvəslə tirajlamağa başlayıblar. Bunun nədən qaynaqlana bilməsinə bir qədər yaxın keçmişə ekskurs etməklə qiymət verək.

Bu ilin yanvar ayının ortalarında Avropa Parlamentində "Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik sahəsində ümumi siyasəti barədə" qətnamənin səsverməsi başa çatdı və yekun olaraq belə bir qərar qəbul edildi: "Avropa İttifaqı bütün Şərq tərəfdaşlığı ölkələrinin beynəlxalq norma və prinsiplər əsasında beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliklərinin dəstəklənməsi üzrə öhdəliklərini təsdiq edir". Səsvermədə iştirak edən 704 deputatdan 454-ü qətnamənin lehinə səs verdi. Məlum qətnamə yeni redaksiyada qəbul edilib və ötən ilin dekabr ayında sənədə tərəfdaş dövlətlərin ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı maddə əlavə edilib. Həmin maddədə, həmçinin, "münaqişədən ziyan çəkən ölkələrin vətəndaşlarına - qaçqın və məcburi köçkünlərə dəstəyin gücləndirilməsi" vurğulanır. Bu qətnamənin qəbul olunması Cənubi Qafqaz üçün onu ifadə edir ki, Ermənistan Qarabağın və Azərbaycanın digər ərazilərinin işğalçısı qismində anti-Azərbaycan və işğalyönümlü sənəd və müzakirələri təşviq edə bilməyəcək. Azərbaycan, öz növbəsində, Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Dağlıq Qarabağ münaqişəsindən zərər çəkmiş məcburi köçkünlərin problemlərinin həllində yeni mexanizm əldə edir. Bunun ardınca ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə keçirilən Cenevrə görüşündə Ermənistanın çətin durumda olduğu nəzərə çarpdı. Bir tərəfdən Paşinyan danışıqlar predmetini lağa qoydu, digər tərəfdən isə xarici işlər naziri masaya oturdu. Bütün bu məğlubiyyətləri kompensasiya etmək üçün Avropadakı erməni mərkəzləri və onların təsiri altında olan qurumlar hərəkətə keçib. Ermənistan mətbuatının tirajladığı məlumatda bildirilir ki, Bundestaqın deputatı Karin Strents toxunulmazlıq hüququndan məhrum edilib, onun evində və ofislərində axtarışlar aparılıb:"Almaniya parlamentinin deputatı Karin Strents və keçmiş deputat Eduard Lintner rüşvət müqabilində Azərbaycan hakimiyyətini müdafiə etməkdə şübhəli bilinir. Onlar barəsində istintaq başlanıb. Strents deputat toxunulmazlığından məhrum edilib". Hər iki şəxsin güya pul qarşılığında Azərbaycan xeyrinə lobbiçilik etdiyi bildirilir. Qeyd edək ki, bundan əvvəl də bir sıra Avropa ölkələrinin parlamentarilərinə qarşı analoji məzmunda ittihamlar irəli sürülüb və sonda təsdiqini tapmayıb. Bəlli olub ki, bütün bu qarayaxma kampaniyasının arxasında erməni lobbisi və ondan bəhrələnənlər durub.

**Məqsəd Azərbaycanı bütün beynəlxalq tribunalarda dəstəkdən məhrum etməkdir. Qeyd edək ki, münaqişə şəraitində olan ölkələrin hər birinin özünə lobbiçilik edən deputatlarla yaxından əməkdaşlıq etməsi normaldır. Ermənistanın özü belə münasibətləri "konyak diplomatiyası" ilə həyata keçirdiyi üçün bizi də şərləməyə çalışır.**

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Düşmən ordusunda artan xaos - Qarabağ münaqişəsinin həllini tezləşdirəcək tutarlı amil...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan sülh danışıqları istənilən nəticəni verməyəcəyi təqdirdə məsələnin hərbi həll ehtimalı yüksək olaraq qalır. Amma bu vəziyyətdə Ermənistanı böyük problemlər gözləməsi düşmən ölkənin özündə də açıq qeyd olunur.**

Ən azı o baxımdan ki, Ermənistan ordusunda davam edən xaos bu ölkənin Azərbaycan qarşısında duruş gətirməsini mümkünsüz edir. Bunu erməni politoloq Suren Surenyants da xüsusi olaraq vurğulayır.

Ekspert bildirir ki, ordunun maddi-texniki təminatı, şəxsi heyətlə komplektləşdirilməsində böyük problem yaşandığı bir vaxtda qanunsuz davranışların da miqyası genişlənir:

"Orduda baş verən islahatlar barədə rəsmi dairələr geniş danışır. Amma reallıqda problemlər kifayət qədər böyükdür. Ermənistan silahlı qüvvələrində yenə də kriminal davranışlar saxlanılır, buna görə də biz dinc şəraitdə qətl və ya intiharlar nəticəsində əsgərlər itiririk". O qeyd edib ki, bəzi yüksək dərəcəli ordu rəsmilərinin vəzifələrdən, rütbələrdən məhrum olunmasının zamanıdır: "Bu, orduda baş verən bütün islahatları sıfıra bərabərləşdirən özünüməhvetmə rejimidir, real fəlakətdir. Əks təqdirdə bəzilərinin ölkə hakimiyyətinə, baş nazirə qarşı təxribat həyata keçirməsi təəssüratı yaranır". Digər erməni ekspert Aram Sarkisyan da orduda xaosun böyüdüyünü bildirir: "Orduda 18-19 yaşlı gənclərin mübahisəsi intihar və ya qətllə başa çatırsa, günahkar ilk növbədə hərbi hissənin zabitləridir. Ermənistanda təqsirsizlik prezumpsiyası var, yoxsa yoxdur? Ümumiyyətlə, ordu yaxşı və pisə qatışdırılmış təzahürlərlə cəmiyyətin güzgüsüdür".

Qeyd edək ki, erməni cəmiyyətində ordu məsələsinin yenidən müzakirə predmetinə çevrilməsinin əsas səbəbi bu günlərdə işğal altında olan Qarabağda ölmüş sıravi erməni əsgər Vahram Avaqyanın ölüm işi üzrə bağlıdır. Bu fonda açılmış cinayət işi çərçivəsində onun xidmət yoldaşları Davit Arakel Movsisyan, Xaçik Armen Qasparyan, Spartak Artur Avetisyan həbs olunub. Xatırladaq ki, 2020-ci il yanvarın 30-da Qarabağdakı hərbi hissələrdən birinin məcburi müddətli hərbi qulluqçusu, sıravi əsgər Vahram Avaqyan ona təhkim olunmuş AKM tipli avtomatdan öz sinə nahiyəsinə atəş açıb və güllə yarası almış vəziyyətdə hərbi hospitala yerləşdirilib, az sonra da ölüm qeydə alınıb. Erməni mediası yazır ki, baş verənlər cari il ərzində də ordunun itkilərinin sayının yüksək olacağını göstərir.

Diqqət həm də ona çəkilir ki, ötən il ərzində də ordunun itkiləri yüksək olub. Erməni mediasının məlumata görə, orduda 2019-cu il ərzində 14 nəfər müddətli xidmət hərbi qulluqçusu olmaqla, ümumilikdə 49 ölüm faktı qeydə alınıb. Qeyd edilən dövr ərzində Ermənistan müdafiə qurumları və İstintaq Komitəsi tərəfindən 19 hərbi qulluqçunun ölüm faktı barədə məlumat verilib. Qeydə alınmış 39 hadisə barədə ilk növbədə mətbuatdan məlumat əldə edilib. Bunlardan 9 hal barədə mətbuatdan, 21 hal barədə isə "Razm.info" saytının Ermənistan prokurorluğuna göndərdiyi sorğuların cavabı əsasında məlumat toplandığı qeyd edilir. Bildirilir ki, Ermənistan dövlət qurumları orduda baş verən ölüm hadisələrini "xidmətlə əlaqəli olan" və "xidmətlə əlaqəli olmayan" olaraq 2 qrupa ayırır. Xidmətlə əlaqəli olmadığı iddia edilən ölüm hadisələri barədə müdafiə qurumları məlumat yaymır. Ancaq prokurorluqdan daxil olan məlumatda qeyd edilir ki, 2019-cu il ərzində müdafiə qurumları tərəfindən "xidmətlə əlaqəli olan" kimi qeydə alınan 3 ölüm hadisəsi barədə məlumat verilməyib. Edqar Qriqoryan, Artsvik Qaribyan və Arayik Tsatryan adlı hərbi qulluqçuların ölüm hadisəsi "xidmətlə əlaqəli olan" ölüm faktı kimi qeydə alınıb, lakin açıqlanmayıb. Bunlar müdafiə qurumları tərəfindən ölüm hadisələrinin hələ də gizlədildiyini göstərir. Eyni zamanda, baş verənlər düşmən ordusunda xousun davam etdiyini də aydın nümayiş etdirir. Elə bundan irəli gəlir ki, Ermənistan ordusunun ağır durumda olmasını erməni ekspertlər, həmçinin ordu ilə əlaqəsi olanlar da açıq etiraf edir.

Baş verənlərlə bağlı Ermənistanın "1in.am" saytı da diqqəti ona yönəldir ki, Nikol Paşinyanın ölkəyə rəhbərlik etdiyi dövrdə də hərbi hissələrdə qeyri-döyüş şəraitində ölən əsgərlərin sayında artım müşahidə olunur. Özü də əvvəlki kimi, bu ölkənin silahlı qüvvələrində baş verən ölüm halları xalqdan gizli saxlanılır. Ekspert Eduard Melikyan isə bildirir ki, əsası Serj Sarkisyan tərəfindən qoyulan bu ənənə, yəni əsgərlərin alçaldılması, zabitlər tərəfindən döyülməsi, təhqir edilməsi bu gün də davam etdirilir. Bu da orduda intihar və özünəqəsd hallarının getdikcə çoxalmasına rəvac verir. Ekspert bildirir ki, orduda əsgərlərin bir-birini odlu silahla öldürməsi halları teztez baş verir:"Təəssüf ki, bütün bunlar xalqdan gizlədilir, ölənlərin və intihar edənlərin sayı barədə məlumat verilmir.

Son vaxtlar əsgərlərdən birinin digərinə atəş açması nəticəsində baş verən ölüm və ağır yaralanma hallarını ört-basdır etməyə çalışan Ermənistanın Müdafiə Nazirliyi bütün bunların, əsgər ölümünün guya atəşkəsin pozulması nəticəsində baş verdiyini iddia edir. Əslində, ölüm faktları silahlı qüvvələrdəki intizamsızlığın və özbaşınalığın nəticəsidir. Bir əsgər öz canına qıyırsa, deməli, bunun arxasında kifayət qədər müəmmalı, şübhəli hallar var. Bu müəmmalar heç vaxt araşdırılmayıb və baş verən ölüm hallarına görə bu vaxta qədər heç kəs cəzalandırılmayıb. Eyni zamanda, bunun kökündə əsgər-komandir inamsızlığı, etimadsızlığı və nizamnamədənkənar halların baş verdiyi, əsgərlərin yüksək rütbəli zabitlərin bağ evlərində qul kimi işlədilməleri dayanır. Ona görə də gənclər kütləvi surətdə hərbi xidmətdən yayınmağa çalışır. Korrupsiya ilə mübarizə silahlı qüvvələrə keçməlidir. Bu təkcə qeyri-qanuni münasibətlərin kökünü kəsməyəcək, həm də gənclərin ölümünün qarşısını alacaq. Əks təqdirdə Bakının aşkar gücünü başımızın üzərində daim hiss edəcəyik". Hüquq müdafiəçisi Janna Aleksanyanın sözlərinə görə, qeyri-döyüş şəraitində əsgər ölümü ilə bağlı qaldırılan cinayət işlərinin hamısında bir səbəb göstərilir: xidməti vəzifəsini yerinə yetirərkən silahla düzgün davranma qaydalarını pozub. Bunlar hamısı Müdafiə Nazirliyinin əsgər ölümlərini ört-basdır etmək üçün uydurmalarıdır.

J.Aleksanyan bildirib ki, Nikol Paşinyanın ölkəyə rəhbərliyindən sonra orduda heç nə dəyişməyib. Əksinə, vəziyyət getdikcə pisləşir. Onun dediyinə görə, gənc əsgərlərin özünəqəsd hallarının əksəriyyəti Nikol Paşinyanın ölkəyə rəhbərliyindən sonra baş verib. Hüquq müdafiəçisi vurğulayır ki, valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyəti komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması, əsgərlərin alçaldılması və döyülməsi faktları təşkil edir. Bu səbəblərə görə də valideynlər bütün vasitələrlə övladlarını hərbi xidmətdən yayındırır, müxtəlif bəhanələrlə ölkədən çıxarırlar. Digər tərəfdən faktdır ki, hərbi xidmətə aparılan gənclərin sağlamlığı yetərincə yoxlanılmır. Gənc əsgərlər arasında psixi problemi, qıcolma və digər xəstəliyi olanlar xeyli saydadır. Lakin həmin xəstələri hərbi xidmətə göndərənlər cəzalandırılmır. Ordudakı özbaşınalıq, müəmmalı əsgər ölümləri Ermənistanda ictimai-siyasi vəziyyəti getdikcə gərginləşdirir. Artıq işğalçı ölkədə yeni etiraz aksiyaları baş qaldırır. Valideynlər bildirir ki, Paşinyan orduda nizam-intizam yaratmalı, quldurluq hallarına son qoymalı olsa da bunu etmir. Belə vəziyyətdə ermənilər açıq etiraf edir ki, Qarabağ münaqişəsinin hərbi həll halında Azərbaycan onlara böyük zərbə endirəcək. Elə rus hərbi ekspert Andrey Frolov da məsələyə bu prizmadan yanaşır:"Azərbaycan son 10 ildə hərbi potensial baxımından Ermənistanla öz arasında xeyli fərq yaradıb". Onun sözlərinə görə, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi Azərbaycan ordusunun inkişafına kifayət qədər ciddi vəsait ayırmağa sövq edir:"Silahlı Qüvvələrinin yeniləmə tempi baxımından Azərbaycan son illərdə MDB-nin aparıcı ölkələrindən birinə çevrilib. Azərbaycan həm Rusiyadan, həm də başqa ölkələrdən bahalı, ciddi, yaxşı xarakteristikalara malik silah sistemləri alır". Ekspertin sözlərinə görə, bu gün Ermənistanın Azərbaycanın texnoloji inkişafına təkbaşına cavab vermək imkanı yoxdur: "Ermənistanın son satınalmalarının hamısı Rusiyanın verdiyi kredit hesabına başa gəlib. Rusiya isə, öz növbəsində, tərəflər arasında bərabərlik yaratmağa, müəyyən balans formalaşdırmağa çalışır. Say, texnoloji və əlbəttə ki, inteqral baxımından Azərbaycan ordusu Ermənistan ordusundan üstündür".

Həqiqətən də bu gün Azərbaycanın güclü və sarsılmaz ordusu var. Ordunun döyüş hazırlığı səviyyəsinin artırılması, onun müasir hərbi texnika və vasitələrlə gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bunu düşmən ölkənin hərbçiləri, hərbi ekspertləri də çıxışlarında dəfələrlə etiraf edib. Onlar bildirirlər ki, Azərbaycan Silahlı Qüvvələri hərbi potensialına görə Ermənistan ordusundan qatqat güclüdür. Ermənilər bu fonda anlamalıdırlar ki, torpaqlarımızın işğalına son qoyulanadək onların başı üzərində daim müharibə təhlükəsi olacaq. Bu müharibə isə onlar üçün kifayət qədər dağıdıcı nəticələrə gətirib çıxaracaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**"Keçən il sosial sahədə çox böyük təşəbbüslər irəli sürülmüşdür. Daha doğrusu, 2018-ci ilin ikinci yarısından artıq bu proqramlar hazırlanırdı və 2019-cu ilin əvvəlindən bu proqramların icrası başlanmışdır. Şəhid ailələrinə böyük məbləğdə vəsait təmin edilmişdir.**



# Həqiqətən də regionumuzda Azərbaycan kimi ikinci ölkə varmı ki...

## *Fuad İbrahimov: "Nəinki regionda, heç MDB məkanında Azərbaycan qədər bu cür geniş sosial təşəbbüslərlə çıxış edən ikinci ölkə yoxdur"*

Ümumiyyətlə, 4,2 milyon insanın sosial və maddi vəziyyəti yaxşılaşdırıldı. Çünki çox böyük sosial paket 4,2 milyon insanı əhatə edib. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox artmışdır".

Bunu Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı deyib. Ölkə başçısı bildirib ki, hazırda minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerdədir: "Bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırılıb, tələbələrin təqaüdləri artırılıb, şəhid ailələrinə birdəfəlik maddi yardım göstərilib, bundan əlavə, şəhid ailələrinin və məcburi köçkünlərin aylıq müavinətləri artırılıb. Yəni bütün bunlar böyük vəsait tələb edən məsələlərdir və bir neçə milyard manata başa gəlir. Ancaq biz bunu edirik. İlk növbədə, ona görə ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. İkincisi, ona görə ki, buna imkanımız var. Əgər istəyimiz olsaydı, imkanımız olmasaydı, bunu necə etmək olardı? Bax, iqtisadi gücümüzü toplayaraq bugünkü reallığı təmin etdik ki, biz bunu edə bilirik. Deyə bilərəm ki, yaxın ətrafda bu cür sosial təşəbbüs göstərən ikinci ölkə yoxdur. Əgər varsa, qoy mənə desinlər, yoxdur. Biz bunu ona görə edirik və hesab edirik ki, bu, düzgündür. Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır".

Həqiqətən regionda Azərbaycan qədər ikinci belə ölkə yoxdur ki, çoxşaxəli və genişmiqyaslı sosial təşəbbüslərlə çıxış etsin. Bütün bunlara böyük həcmdə vəsaitin ayrılması sözügedən sahəyə göstərilən xüsusi diqqətin göstəricisidir.

*"Sosialyönümlü layihələrdə başlıca məqsəd həm də onunla bağlıdır ki, əhalinin gəlirləri xərclərindən daha çox olsun"*

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Fuad İbrahimovun sözlərinə görə, nəinki regionda, heç MDB məkanında Azərbaycan qədər bu cür geniş sosial təşəbbüslərlə çıxış edən ikinci ölkə yoxdur: "2019-cu il Azərbaycanın müstəqilliyi dövründə ən genişmiqyaslı sosial paketin qəbul olunduğu il kimi tarixə düşdü. Hətta 2015-ci ildən üzübəri banklarda mövcud olan problemli kredit məsələsinin həlli ilə bağlı qərar verildi. Nəticədə sözügedən məsələ öz həllini tapdı. MDB məkanında belə geniş miqyasda sosial siyasət həyata keçirilməyib. Elə bir ölkə yoxdur ki, Azərbaycan qədər sosial məsələlərə bu qədər önəm versin. Heç bir ölkədə bir il ərzində bu dərəcədə geniş və çoxşaxəli sosial layihələr həyata keçirilməyib. Bununla belə, məlum konfransda Prezident İlham Əliyev yenə də bu sahəyə xüsusi önəm veriləcəyini bildirdi.

**Müvafiq dövlət qurumlarına bununla bağlı tapşırıqlar verdi. Sosialyönümlü layihələrdə başlıca məqsəd həm də onunla bağlıdır ki, əhalinin gəlirləri xərclərindən daha çox olsun. Hesab edirəm ki, müvafiq orqanlar institusional səviyyədə bu məsələlərin həllinə yardım etsələr, qısa zaman ərzində Azərbaycan üzərinə düşən öhdəlikləri yerinə yetirəcək".**

***Vidadi ORDAHALLI***

**"Mənə verilən məlumata görə, bəzi hallarda işçiləri vaxtından çox işlədirlər. Bizim 8 saatlıq iş günümüz var. Heç kim ondan artıq işləməməlidir. Amma daha çox pula qənaət etmək üçün 10 saat, 12 saat, ondan da çox işlədirlər".**



# Azərbaycanda sahibkar-işçi münasibətlərində yeni dövr başlayır - 8 saatdan artıq iş olmaz, müqaviləsiz iş olmaz və...

## *Sahib Məmmədov: "Bu sahədə ən böyük problem özəl sektorda mövcuddur"*

Bu sözləri Prezident İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışı zamanı deyib. Dövlət başçısı bildirib ki, buna son qoyulmalıdır və Nazirlər Kabineti buna nəzarət etməlidir: "Xüsusi müşavirə keçirilsin ki, bu məsələlər müzakirə olunsun və əgər belə hallara yol verilirsə, o sahibkar cəzalandırılacaq. İşçilərə də müraciət edirəm. Siz də əmək müqaviləsi olmadan işləməyin. Mən bilirəm ki, bəzi hallarda sizi məcbur edirlər. Amma bilin ki, əgər əmək müqaviləsi olmasa, sabah pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Ona görə sahibkarlar vergisini ödəməli, bütün qanuni tələblərə riayət etməli və məsuliyyətli olmalıdırlar. İmkanlı sahibkarlar, əlbəttə ki, öz sosial məsuliyyətini də dərk etməlidirlər. Eyni zamanda, əsassız olaraq işçiləri ixtisar etməməlidirlər. Çünki ixtisar edilən hər bir iş yeri bir ailəni çörəksiz qoyur. Buna getmək olmaz".

Ölkə başçısının sözügedən məsələyə toxunması işçi-sahibkar münasibətlərində yeni mərhələ açır. Çünki həqiqətən də bir sıra özəl müəssisələrdə bu tələblərə əməl olunmur. İşçilər nəinki 12 saat, hətta 15 saat işlədilir. Hansı ki, əmək qanunvericiliyinə görə, işçi 8 saatdan artıq işlədilə bilməz.

Məsələyə münasibət bildirən Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədovun sözlərinə görə, əsasən qeyri-formal əmək bazarında işçilər normadan artıq işlədilir: "Prezident İlham Əliyev konfransda çox ciddi məsələyə toxundu. Sözügedən problemi doğuran bir sıra səbəblər var. Məsələ ondadır ki, Azərbaycanda qeyri-formal əmək bazarının həcmi həddən artıq yüksəkdir. Düzdür, həmin sahələrdə də işçilərlə əmək müqavilələri bağlanır. Ancaq buna baxmayaraq, qanunsuz olaraq işçilər normadan çox işlədilir. Əslində, əmək qanunvericiliyində iş yerlərində vaxtından çox işlədilən hallar dəqiq göstərilir. Bu zaman ödənişin həyata keçirilməsi yolları da aşkar göstərilir. Ümumən bu, işçinin xeyrinədir. İşçi iş vaxtından artıq işlərə cəlb olunduqda, onun razılığı olmalıdır və bu rəsmiləşdirilməlidir. Buna görə ikiqat ödəniş olmalıdır. Ölkə Prezidentini narahat edən məsələ qanunsuz olaraq, işçilərin iş vaxtından əlavə məcburi işlədilməsidir. Bu da əsasən qeyri-formal əmək sektorunda baş verir. O yerdə ki, orada, ümumiyyətlə, işçilərlə əmək münasibətləri rəsmiləşdirilmir. Dövlətin tabeliyində olan təsərrüfat subyektlərində vəziyyət nisbətən yaxşıdır. Demirəm sözügedən subyektlərdə qanunsuz olaraq işçilər vaxtından artıq işlədilmir. İşlədilir, amma bu, kütləvi hal almayıb. Yaxud da bir çox yerdə bu rəsmiləşdirilir və işçiyə ikiqat ödəniş edilir. Bu sahədə ən böyük problem özəl sektorda mövcuddur. Tikinti, ticarət, iaşə sektorunda belə hallara çox rast gəlinir. Orada işçiləri nəinki iş vaxtından artıq işlərə cəlb edirlər, eyni zamanda, əməyin mühafizəsi yaxşı təmin olunmur. Dövlət investisiya layihələri həyata keçirilərkən belə bu tələblər pozulur. Yolların, körpülərin və digər obyektlərin tikintisi zamanı fəhlələr qızmar günəş altında işləyirlər.

*"Tikinti, ticarət, iaşə sektorunda işçiləri nəinki iş vaxtından artıq işlədirlər, eyni zamanda, əməyin mühafizəsi yaxşı təmin olunmur"*

**Belə ki, onlar saatlarla normadan artıq işləyirlər. Ona görə də bunların hamısı cənab Prezidentin diqqətini cəlb edib. O üzdən, belə halların qarşısını almaq lazımdır. Çünki bu, birincisi, əmək hüquqlarının kobud şəkildə pozulmasıdır, ikincisi, əməyin mühafizəsi qaydalarının pozulması deməkdir. Bütün bunlar sağlamlığa zərər vurur. Ona görə də bu sahədə nəzarət gücləndirilməlidir".**

***Vidadi ORDAHALLI***

**Bu gün dünyanın demoqrafik mənzərəsini ayrı-ayrı ölkələrin timsalında təhlil etdikdə bir çox ölkədə əhalinin sayının sürətlə azaldığını müşahidə edirik. Azərbaycanda isə son 30 ildə əhalinin sayında azalma yox, artım baş verib.**

# Son 30 ildə Azərbaycan əhali artımına görə Qafqazın lider ölkəsinə necə çevrildi...

Beynəlxalq araşdırma mərkəzlərinin apardıqları sosioloji, demoqrafik sorğulara görə, Azərbaycan əhalisinin sayı artır, Ermənistanda isə, əksinə, azalır. "Azadlıq" radiosu postsovet ölkələrində 1990-2019-cu il aralığında demoqrafik tendensiyanın nəticələrinə istinadən məlumat yayıb ki, Azərbaycan Cənubi Qafqazda son 30 ildə əhali artımının qeydə alındığı yeganə dövlətdir. Belə ki, hesabat dövründə Azərbaycanda əhalinin artımı 28,5% təşkil edib. Ermənistanda (-15,7%) və Gürcüstanda (-31%) isə əhalinin azalması qeydə alınıb.

Təqdim edilən cədvəldə ölkələrin statistika xidmətlərinin məlumatlarından istifadə edilib.

Bu statistikaya əsasən, Azərbaycan göstərilən dövr üzrə əhalinin artımına görə postsovet məkanında ilk beşliyə daxil olub. Siyahıya Tacikistan (57%) başçılıq edir, Gürcüstan isə sonuncu pillədə qərarlaşıb.

"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli qeyd etdi ki, əhali artımı bütün dövrlərdə Cənubi Qafqaz ölkələri arasında Azərbaycanda öndə olub. O qeyd etdi ki, 2003-2018-ci illərdə, yəni 15 il ərzində Azərbaycan əhalisinin sayı 1,8 milyon nəfər artıb.

F.Hacıbəyli vurğuladı ki, 1897-ci ildə Azərbaycan əhalisinin sayı 1 milyon 807 min nəfər idi. 1997-ci ildə bu göstərici 7 milyon 847,5 min nəfər təşkil edirdi: yəni yüz ildə təxminən 6 milyon artım. Bu yüz ildə Azərbaycanın dörd dəfə kəskin demoqrafik çətinliklərlə üzləşdiyini deyən F.Hacıbəylinin sözlərinə görə, bu əsasən müharibələr zamanı yaşanan problem olub. 1913-1920-ci illərdə Birinci Dünya Müharibəsi, xarici müdaxilə, vətəndaş müharibəsi, ermənilər tərəfind?n azərbaycanlıların soyqırımı və digər hadisələrin təsiri nəticəsində əhalinin sayı 387 min nəfər azalmış, 2 milyon 339 min nəfərdən 1 milyon 952 min nəfərə enmişdi. Növbəti demoqrafik böhran 1941-1945-ci illərdə, Böyük Vətən Müharibəsi zamanı yaşandı. Azərbaycan əhalisinin sayı 1940-cı ilin əvvəlindəki 3 milyon 274,3 min nəfərdən 1945-ci ilin əvvəlində 2 milyon 705,6 min nəfərədək azaldı və xalqımız müharibədən əvvəlki səviyyəyə yalnız 10 il sonra, 1955-ci ildə çata bildi.

F.Hacıbəylinin qeyd etdiyinə görə, Azərbaycanın əhali artımı sahəsində bölgədə lider olmasının əsas səbəbi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin düzgün qurulmasıdır. "Azərbaycan əhalisinin sayının Ermənistandan və Gürcüstandan, eləcə də digər respublikaların əhalisinin sayından üstün olması, ölkəmizdə əhali artımının baş verməsi dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin nəticəsidir.

## Fatimə Hacıbəyli: "...ölkəmizdə əhali artımının baş verməsi dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin nəticəsidir"



## "Əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlər də bu sahədəki nəticələrə müsbət təsir göstərir"

Keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq respublikamızda aparılan sosial-iqtisadi islahatlar əhalinin rifah halının yaxşılaşmasına səbəb oldu. Bu siyasət nəticəsində ölkəmizin demoqrafik göstəricilərində müsbət irəliləyişlər baş verdi. 2003-2018-ci illəri Azərbaycanın sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər dövrü kimi səciyyələndirmək olar. Bu illər ərzində ölkədə 2 milyona yaxın yeni iş yeri yaradılıb, işsizlik 5 faizə enib. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə qədər azalıb. Əməkhaqları 7 dəfə, eləcə də minimum əməkhaqqı 6,5 dəfə artırılıb. Regionların misilsiz inkişafı kənddən şəhərə axını dayandırıb. Əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlər də bu sahədəki nəticələrə müsbət təsir göstərir. Bu gün hətta ucqarlarda yaşayan insanlar müasir tibbi xidmətlə əhatə olunublar. Şəhər və rayon xəstəxanaları, doğum evləri əsaslı təmir olunur və ya yeniləri tikilir. Prezidentin təşəbbüsü ilə əhali hər il pulsuz tibbi müayinədən keçirilir. Deməli olar, bütün bölgələrdə yeni idman qurğuları, stadionlar tikilib. Əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə kompleks tədbirlər görülür. Məlumdur ki, müavinətlər və pensiyalar, təqaüdlər, eləcə də minimum əməkhaqqı davamlı olaraq artırılır. Minlərlə gənc ailə ipoteka proqramından yararlanaraq mənzil sahibi olur, dövlət vəsaiti hesabına vətəndaşlar üçün sosial evlər tikilir və istifadəyə verilir. Bütün bunlar bəlkə də dünyada dövlətin öz vətəndaşına qayğısının analoqu olmayan nümunələridir".

F.Hacıbəyli vurğuladı ki, Azərbaycanla müqayisədə Ermənistanda əhalinin sosial rifah halının yüksəldilməsi üçün heç bir addım atılmır. Bu gün Ermənistan vətəndaşlarının acyalavac vəziyyətdə olduğunu xatırladan ekspert vurğuladı ki, bu ölkədə ölüm faizi doğum faizini çox-çox üstələyib.

Azərbaycanda isə sosial sahədə davam edən islahatlar, bu islahatların uğurlu nəticələri ölkə əhalisinin artaraq 10 milyon nəfərə çatmasına şərait yaradan amil olub.

Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əminamanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Azərbaycanda əhali sayının 10 milyon nəfərə çatması da dünyanın diqqətindən yayınmır. F.Hacıbəyli qeyd etdi ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. "Azərbaycan vətəndaşının qayğı və problemlərinin həll edilməsi yönündə dövlətin atdığı addımlar buna sübutdur" - deyə müsahibimiz vurğuladı.

***İradə SARIYEVA***

# Ali Attestasiya Komissiyasının ləğvi mövzusu ətrafında müzakirə dərinləşir

## ***Həbib Zərbəliyev:*** *"Hazırda Ali Attestasiya Komissiyası kimi bir qurumun mövcud olması o qədər də məntiqli deyil"*

**Prezident yanında Ali Attestasiya Komissiyasının (AAK) fəaliyyəti ilə bağlı elmi ictimaiyyətdə birmənalı fikir yoxdur. Bir sıra elm xadimləri hesab edirlər ki, AAK-da baş verən neqativ proseslər, habelə elmi iş müdafiə etmək istəyən gənclərin burada üzləşdiyi bürokratik əngəllər bu qurumun ləğvini aktuallaşdırıb. Bu qənaəti bölüşən alimlərdən biri də Azərbaycanda İndoneziya dili üzrə ilk mütəxəssis, Azərbaycan Dillər Universitetinin professoru Həbib Zərbəliyevdir.**

H.Zərbəliyev bu qurumda keçmişdə baş verən və bu gün də həmin mənfi proseslərin burada müəyyən şəxslər tərəfindən davam etdirilməsindən narahatdır. Professorla əlaqə saxlayıb onu AAK-la bağlı narahat edən məqamları öyrəndik.

**- Həbib müəllim, AAK-ın fəaliyyətində bir elm adamı kimi sizi nə qane etmir?**

- Söhbət təkcə məndən getmir. Əslində, AAK-ın hazırkı fəaliyyətinin mənim üçün heç bir önəmi yoxdur. Çünki mən o mərhələni çoxdan keçmişəm. Amma mənim dissertantlarım var, ətrafımda alim olmaq istəyən gənclər var. Mən onların vəziyyətinə görə bu məsələyə münasibət bildirmək istəyirəm. Məsələnin mahiyyəti nədən ibarətdir? AAK-ın Rəyasət Heyəti 13 dekabr 2019-cu il tarixində bir qərar verib. O qərara görə, 11 iyun 2018-ci il - 11 iyun 2019-cu il müddətində ilkin müzakirədən keçmiş dissertasiya işlərindən başqa qalan bütün dissertasiyalar yenidən ilkin müzakirədən, eləcə də 11 iyun 2019-cu il tarixinədək elmi seminardan keçmiş hər bir dissertasiya işi yenidən elmi seminardan keçirilməlidir. Yəni illərlə oturub gözləyirlər ki, onların yazdıqları elmi işlərin müzakirəsi keçsin. Lakin onlardan asılı olmayan səbəblərdən AAK-ın fəaliyyəti dayandırıldıqda həmin bu birillik müddət ortada qalır. Yəni burada dissertantların, doktorantların heç bir günahı yoxdur. AAK fəaliyyət göstərməyib və indi öz fəaliyyətsizliyinə görə dissertantları, doktorantları cəzalandırır.

**- Dissertant və doktorantlar komissiyanın bu qərarına etiraz bildiriblər. Onların etirazları elmi ictimaiyyətdə də böyük əks-səda yaratdı.**

- Dissertantlar, doktorantlar haqlı olaraq AAK-ın bu qərarına etiraz ediblər. Burada çox ciddi bir məsələ var. Azərbaycan Konstitusiyasının 147-ci maddəsinin 7-ci paraqrafına görə, vətəndaşların vəziyyətlərini yüngülləşdirən hal əvvəlki illərə şamil edilə bilər, amma bu, vətəndaşların vəziyyətini ağırlaşdırıcı hallardırsa, heç bir halda əvvəlki illərə şamil edilə bilməz. Yəni AAK-ın bugünkü qərarı heç bir halda dissertantların əvvəlki halına şamil edilə bilməz, bu qərar əsassızdır.

**- Təkliflərinizdən biri odur ki, AAK ləğv edilsin və onun səlahiyyətləri ali məktəblərə verilsin. Ali məktəblər buna hazırdırmı?**

- Əsas məsələ AAK-ın deyil, AAK-ın çıxardığı qərarın ləğv edilməsidir. Amma gələcəkdə AAK-ın ləğvi barədə düşünmək olar. Bilirsiniz, AAK keçmiş Sovet respublikalarında olan bir qurum idi. Artıq bəzi respublikalar AAK-ı ləğv ediblər. Bizdə də gələcəkdə bu barədə düşünülə bilər. Təhsil Nazirliyinin nəzdində Akkreditasiya Agentliyi yaradılıb. AAK ləğv edilib müdafiə şuraları universitetlərə verilərsə, həmin Akkreditasiya Agentliyi universitetlərin fəaliyyətini yoxlayarkən şuraların da fəaliyyətini yoxlaya, hər hansı bir qanun pozuntusu olarsa, o şuranın fəaliyyəti dayandırıla bilər. Bu çox sadə, bəsit bir mexanizmdir.

**- Xarici ölkələrdə AAK-ın gördüyü işləri ali məktəblər görürlər...**

- Bəli.

**- AAK-ın ləğv edilməsi reallaşarsa, sizcə bu, elmi ictimaiyyət tərəfindən necə qarşılanar?**

- Hesab edirəm ki, AAK-ın ləğvini elmi ictimaiyyət normal qarşılayar. Bilirsiniz, neqativ halların baş verməsi hər yerdə mümkündür. İstər universitetin nəzdində fəaliyyət göstərsə, istərsə də indiki halda bunun baş verməsi mümkündür. Deyim ki, indiki halda daha çox neqativ hal var. Sizə bir neçə nümunə deyim. Məsələn, AAK-ın əsasnaməsinə görə, konkret bir müddət müəyyənləşdirilib, dissertasiya ora daxil olduqdan sonra onun haqqında qərar müəllifə çatdırılmalıdır. Səhv etmirəmsə, o müddət əvvəllər 6 ay idi, amma, deyəsən, indi o müddət azaldılıb. Ancaq dissertantlar oturub illərlə gözləyirlər ki, AAK bunlara cavab versin, qurum isə heç bir cavab vermir. Bir neçə gün əvvəl bizim universitetin bir müəlliməsi deyir ki, mən təxminən bir il əvvəl dissertasiyamı vermişdim və mənə bu gün zəng vurub deyirlər "sizə imtina olunub". Niyə? Sizin dissertasiya işini bir il saxlamaqda məqsədiniz nədir? Sizə deyim məqsəd nədir? O yerə qədər gözləyirlər ki, müdafiə etmiş şəxs bunlara müraciət etsin, onlar da onunla bazarlıq etsinlər.

**- Ortada bazarlıq söhbəti də varmış?**

- Bəli. Biz 30 ildir bu işlərin içindəyik. Mən əvvəlki illərdən danışıram. AAK-ın sədri hələ ki, yenidir. Son bir neçə ildə AAK açıq şəkildə bazara çevrilmişdi. Məsələn, hətta AAK-da ekspert şuralarının tərkibində vasitəçi ekspertlər vardı. Yəni dissertasiya daxil olurdu, müzakirə onunanda yaxşı, yaxud pis olmasından asılı olmayaraq, iddiaçıya zəng vururdular ki, bəs sizin vəziyyətiniz çox pisdir, ancaq mən sizə kömək edə bilərəm. Bu zəngdən sonra "tələyə" düşənlər olurdu, bəzilərinin də imkanı olmadığı üçün düşmürdü də. Yəni belə şeylər vardı. Biz gözləyirdik ki, AAK-ın yeni heyəti bu neqativ halları aradan qaldıracaq, ola bilsin, qaldırsın da. Amma hazırda dissertantlara qarşı verilmiş qərar tamamilə əsassızdır.



*"Son bir neçə ildə Ali Attestasiya Komissiyası açıq şəkildə bazara çevrilmişdi"*

**- Arif Mehdiyev rəhmətə getdikdən sonra AAK-ın fəaliyyətindən ciddi narazılıqlar edilməyə başladı, xüsusən də elmi ictimaiyyət, görkəmli alimlər bu qurumdakı neqativ hallara müxtəlif yollarla etirazlar ediblər. Lakin hələ də bu qurum tənqidlərdən heç bir nəticə çıxarmayıb. AAK-da qeyri-şəffaf bir mühitin yaradılması da illərdir müzakirə mövzusudur...**

- Bəli. Hətta AAK-a növbədənkənar o qədər adam göndərilirdi ki, onların siyahısı növbədə olanlardan daha uzun idi. Bilirsiniz ki, növbədənkənar da hansı yollarla olurdu.

**- Siz yəqin məmurların, millət vəkillərinin, onların yaxınlarının növbədənkənar müdafiəyə buraxılmasını nəzərdə tutursunuz?**

- Təkcə onlar deyildi, başqa imkanı olan şəxslər də vardı ki, gedib işini növbədənkənar həll edirdi. Bu da böyük əksəriyyət idi.

**- Bütün deyilənlər, iddialar, baş verənlər elmi ictimaiyyətdə belə rəy yaradıb ki, artıq AAK özünü bir qurum kimi doğrultmur və onun tarixə qovuşması labüddür.**

- Mən indi onları ittiham edə bilmərəm. Çünki sədr yeni təyin edilib. Qısa müddətdə ondan ciddi dəyişiklikləri gözləmək də doğru olmaz. Amma orada vaxtilə işləyənlərin böyük bir qismi dəyişdirilib. Buna baxmayaraq, hələ də AAK-da neqativ işlərlə məşğul olan şəxslərdən qalanlar var.

**- Həbib müəllim, universitetlərdə fəaliyyət göstərən dissertasiya şuralarının bir hissəsinin fəaliyyəti də vaxtaşırı tənqid edilir. Universitetlərdə şəffaflıq niyə qorunmur?**

- Universitetlərdə müdafiələr açıq keçirilir. Bu, "açıq müdafiə" adlanır. Universitetə aidiyyəti oldu-olmadı, istənilən vətəndaş gəlib müdafiələrdə iştirak edə bilər, hətta söz də deyə bilər. Yəni burada "qeyri-şəffaflıq"la bağlı iddia irəli sürmək doğru olmazdı. Müdafiədə universitetlərin özlərində növbə var, növbəni pozan da məhz universitetlər yox, AAK-dır. AAK-ın məktubu ilə gəlirlər ki, filankəs növbədənkənar keçsin.

**- Bu həmin qurumun əsasnaməsinə nə qədər uyğundur?**

- Uyğun deyil, qətiyyən. Orada göstərilməyib ki, hansı hallarda növbədənkənar keçmək olar. Əvvəllər belə qaydada vardı ki, elmlər doktorunun müdafiəsi elmlər namizədindən qabaq, növbədənkənar olmalı idi. Çünki elmlər doktorluğu sahəsində dissertasiya çox az hallarda müdafiə olunurdu. İldə 1-3 nəfər müdafiə edirdi, bu da normal qarşılanırdı. Universitetlərdə müdafiə edənlər əsasən fəlsəfə doktorlarıdır və burada da heç bir qanun pozuntusu olmur. Son iki-üç ildə qanunu pozan isə məhz AAK özü idi.

**- Sizcə, bu qədər etirazdan, narazılıqlardan sonra AAK-ın saxlanmasına elmi ictimaiyyət ehtiyac duyurmu?**

- Mən sosial şəbəkələrdə öz statusumda bu barədə şəxsi fikrimi yazmışdım ki, hazırda AAK kimi bir qurumun mövcud olması o qədər də məntiqli deyil. Buna mənfi yanaşanlar da oldu ki, sən qurum ləğv edənsənmi... Əlbəttə, bu, ölkə başçısının səlahiyyətində olan məsələdir. Şəxsən bu haqda mənim fikrim belədir ki, biz dünyaya inteqrasiya ediriksə, dünyada gedən proseslərə uyğunlaşmalıyıq. AAK Avropa ölkələrinin heç birində yoxdur, heç Asiya ölkələrində də yoxdur. Dediyim kimi, keçmiş Sovet respublikalarında idi, onlar da artıq bu komissiyanı ləğv etməyə başlayıblar.

**- Həbib müəllim, AAK-ın fəaliyyətini alimlər bəzən anonim şəkildə tənqid edirlər, açıq danışmaq lazım gəldikdə isə "AAK ən yaxşı qurumdur" deyirlər...**

- Yox, ən yaxşı qurum deyil. Bilirsiniz, hər bir müdafiə şurasının tərkibində təxminən 20-25 nəfər həmin sahə üzrə mütəxəssis olur. Bu mütəxəssislərin verdiyi rəyi AAK istənilən şəkildə rədd edə bilir. Xatırlayıram ki, son 5 il ərzində AAK-ın ekspert şuralarının neçə sədri istefa verib. Çünki deyirlər ki, biz şurada başqa qərar qəbul edirik, sədr deyir ki, bu belə olmalıdır. Yəni ekspertlərin qərarları heçə sayılır.

**- Belə çıxır ki, onda ekspertlər şurası formal xarakter daşıyır...**

- Belə çıxırdı. Mən köhnə vaxtlardan danışıram. Arzu edək ki, indi belə şeylər olmasın. Amma kənardan müşahidələr göstərir ki, şuraların tərkibində hələ də keçmiş hava ilə yaşayanlar var.

***İradə SARIYEVA***

# Xaricdə dəfn edilmiş məşhur mühacirlərimizin məzarları üçün Azərbaycanda ayrıca qəbiristanlıq...

***Faiq Ələkbərli:*** *"Mühacir şəxsiyyətlərimizin, dövlət xadimlərimizin məzarları Azərbaycana köçürülərsə, bu zaman artıq xərclərə də ehtiyac qalmaz"*

**Bilsəydilər ki, qürbətdə can verəcəklər, əcəl şərbətini doğma vətəndən min kilometrlərlə uzaqlarda, qərib yerlərdə içəcəklər, bəlkə də "ölməyə vətən yaxşı" deyib, burada qalacaqdılar. Azərbaycanın hüdudlarından kənarda mühacirət həyatı yaşayan və ömrü qürbət ellərdə sona yetən bir sıra görkəmli dövlət xadimlərimiz var ki, onlara vətən torpağına qarışmaq qismət olmayıb.**

Dünyanın müxtəlif ölkələrində dəfn edilən o şəxsiyyətlər "Azərbaycan" deyə-deyə dünyadan köçüblər.

Hətta ölkə ziyalıları, tarixçiləri Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov və Xalq Cümhuriyyətinin digər qurucularının, liderlərinin nəşinin Azərbaycana gətirilərək burada dəfn edilməsinin vacibliyini qeyd ediblər. Belə təkliflər də var ki, Azərbaycanda ayrıca bir məzarlıq yaradılsın və həmin məzarlıqda qürbətdə dəfn edilən dahi şəxsiyyətlərimizin cəsədləri dəfn edilsin. Buna səbəb kimi Azərbaycandan kənarda dəfn edilən siyasi xadimlərin dəfn edildikləri məzarlıqların çoxunun bahalı olması və onların məzarlarının saxlanması üçün külli məbləğdə vəsait tələb olunmasıdır. Hətta illər əvvəl yerli mətbuatda gedən bir məqalədə Əlimərdan bəy Topçubaşovun məzarının Fransanın məşhur Sen-Klu məzarlığında saxlanması üçün dövlət tərəfindən icarə haqqı ödənildiyi barədə məlumat yer almışdı. Əlbəttə, Azərbaycan dövlətinin öz böyük oğluna sahib çıxması, onun məzarüstü abidəsinin yenidən qurulması istiqamətində həyata keçirdiyi işlər təqdirəlayiqdir. Fransanın paytaxtı Paris yaxınlığındakı müqəddəs Sen-Klu qəbiristanlığında uyuyan böyük Azərbaycan oğullarından biri olan Əlimərdan bəy Topçubaşov dövlətçilik tariximizin formalaşmasında müstəsna rol oynayıb. Tədqiqatçılar yazırlar ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sədri, Azərbaycan Cümhuriyyətinin ikinci xarici işlər naziri, böyük dövlət xadimi Əlimərdan bəy Topçubaşov ömrünün son illərini maddi sıxıntı içində yaşayıb və 2 il ağır xəstəlikdən sonra, 5 noyabr 1934-cü ildə vəfat edib. Onu da vurğulayaq ki, uzun illər yad edilməyən, məzarı az qala unudulan Ə.Topçubaşova ən böyük qiyməti Heydər Əliyev verib. Belə ki, 1993-cü ildə Heydər Əliyev Fransaya ilk səfərində onu müşayiət edən dövlət xadimləri və görkəmli ziyalılarla birgə Sen-Klu qəbiristanlığına baş çəkərək Ə.Topçubaşovun xatirəsinə ehtiramını ifadə edib. Hətta bildirilənə görə, həmin tarixdə Heydər Əliyev Əlimərdan bəyin yubileyinin keçirilməsi ilə də bağlı sərəncam imzalayıb. Prezident İlham Əliyevin Ə.Topçubaşovun 150 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı sərəncam bu böyük şəxsiyyətə hörmətin ifadəsidir.

Professor Nadir Məmmədli qeyd edir ki, Parisdə Azərbaycanın rəmzi ünvanlarından olan həmin məzarı Prezident İlham Əliyev də 2006-cı ilin mayında ziyarət edib: "Lakin artıq görkəmli dövlət xadimi Ə.Topçubaşovun məzarüstü kompleksi müsbət mənada xeyli dəyişikliyə uğramışdı. Köhnə məzar daşının üstündə Qurandan ayələr yazılmışdı və bu həmin qəbiristanlıqda üstündə ərəbcə yazılar olan yeganə məzar idi...".

Məlum olduğu kimi, Ə.Topçubaşov və onun rəhbərlik etdiyi nümayəndə heyəti Paris Sülh Konfransında iştirak etmək üçün Fransaya getmişdi. Lakin onun və silahdaşlarının taleyinə qürbətdə yaşamaq və orada da son mənzilə yola salınmaq yazıldı.

Qayıdaq Ə.Topçubaşovun Sen-Klu məzarlığında qəbrinin saxlanmasına Azərbaycan dövlətinin icarə pulu verməsi ilə bağlı vaxtilə yayılan fikrə. Müraciət etdiyimiz alimlərin əksəriyyəti bildirdi ki, bu faktın nə dərəcədə dəqiq olması haqda məlumatsızdır, bu barədə onlar da mətbuatdan oxuyublar. Alimlər bildirdilər ki, Heydər Əliyev Topçubaşovun məzarını ziyarətə getdiyi zaman onun məzarı həqiqətən də bərbad və baxımsız vəziyyətdə imiş. Sonra H.Əliyevin göstərişi ilə Topçubaşovun məzarına qayğı-diqqət artırılıb.



Professor Asif Rüstəmli bizimlə söhbətində bildirdi ki, o bu barədə mətbuatdan oxuyub: "Heydər Əliyev Parisə gedib Topçubaşovun məzarını ziyarət etmişdi. Elə həmin dövrdə də siz dediyiniz faktla bağlı mətbuat yazmışdı. Amma Xoyskinin, Rəsulzadənin, Həsən bəy Ağayevin məzarları ilə bağlı vurğuladığınız fakta rast gəlməmişəm. Topçubaşovun dəfn edildiyi qəbiristanlıqda məzar yeri icarəyə verilir. Müddət bitdikdən sonra müqavilə uzadılmırsa, yer başqasına satılır. Mən bildiyim qədər, uzunmüddətli icarə haqqı ödənilib. Ancaq bu informasiyanı dəqiqləşdirməyə ehtiyac var".

Filologiya elmləri doktoru Nadir Məmmədli vaxtilə Topçubaşovun məzarını ziyarət edib və bu barədə geniş şəkildə yazıb. N.Məmmədli bizimlə söhbətində bildirdi ki, Sen-Klu qəbiristanlığı dünyanın ən bahalı qəbiristanlıqlarından biridir. Onun sözlərinə görə, bura bahalı qəbiristanlıq olduğu üçün, burada icarə haqqı da bahadır. Müqəddəs Sen-Klu məzarlığında qəbirlərin bir neçə mərtəbəli olduğunu deyən N.Məmmədli bildirdi ki, Ə.Topçubaşov beşmərtəbəli qəbirdə uyuyur: "Sen-Klu qəbiristanlığı qətiyyən bizim qəbiristanlıqlara bənzəmir, ora tamamilə başqa cürdür. Sen-Klu o qədər bahalı yerdir ki, yerli əhalinin dediyinə görə, 1 kvadratmetr yer 10 min avrodur. Ona görə də burada qəbirlər çoxmərtəbəlidir. Topçubaşovun qəbri beşmərtəbəlidir. Bu qəbiristanlıqda dəfn olunmağın siyasi əhəmiyyəti var. O vaxt Parisdə olan türk mühacirləri ianə toplayaraq Topçubaşovun qəbrini saxlayırdılar. İş burasındadır ki, icarə haqqı ödənilmədikdə də onun qəbrini saxlayırdılar. Çünki bunun siyasi mahiyyəti vardı. 1993-cü ildə Heydər Əliyev Topçubaşovun məzarını ziyarət etdikdən sonra vəziyyət dəyişdi".

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycandan uzaqda, qürbət ölkələrdə vəfat edən və orada basdırılan böyük şəxsiyyətlərin, Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış mühacirlərin, tarixi simaların nəşinin Azərbaycana gətirilərək burada ayrıca qəbiristanlıqda dəfn edilməsi çox vacibdir: "Düşünürəm ki, ömrünü mühacirətdə başa vurmuş şəxsiyyətlərimizin nəşinin Bakıda xüsusi bir məzarlıqda dəfn edilməsi çox müsbət hal olardı. Sadəcə, həmin şəxsiyyətlərin dəfninin hansı şəkildə təşkil edilməsi, bu məsələdə onların qohumlarının fikirlərinin öyrənilməsi də vacibdir. Bu proses qarşılıqlı şəkildə, yəni şəxsiyyətlərin varislərinin razılığı alınmaqla həyata keçirilməlidir. Ümumilikdə, bu şəxsiyyətlər Azərbaycan xalqının sərvətidir, dəyəridir, onlara bu dəyər verilməlidir. Burada söhbət təkcə Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynayan şəxsiyyətlərin məzarlarının ölkəmizə köçürülməsindən getmir, bütövlükdə, onlara verilən dəyərdən gedir. Hesab edirəm ki, bu, məzarlıqdan daha çox möhtəşəm bir abidəni xatırlatmalıdır. Elə bir şəkildə ki, ora yalnız bir qəbiristanlığı xatırlatmamalı, indiki və gələcək nəsil üçün bir örnək olmalıdır. Fransada, Almaniyada, Polşada, Türkiyədə, Gürcüstanda və digər ölkələrdə mühacirət həyatı yaşayaraq orada vəfat etmiş şəxsiyyətlərimizin məzarlarının ölkəmizə köçürülməsi məsələsi çoxdan aktuallaşıb. M.Ə. Rəsulzadə, Ə.Topçubaşov, Fətəli xan Xoyski, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadənin məzarları gətirilsə yaxşı olar, amma onların dəfn edildiyi yer möhtəşəm olmalıdır. Nəsib bəy Yusifbəylinin məzarının yeri bəlli deyil, o da araşdırılmalıdır".

F.Ələkbərli pullu məzarlıqlarda dəfn edildiyi bildirilən mühacirlərlə bağlı qeyd etdi ki, onların məzarları üzərində təmir-bərpa işləri aparılır. Bu işi Azərbaycan dövlətinin həyata keçirdiyini deyən F.Ələkbərlinin sözlərinə görə, onların məzarlarının saxlanması üçün dövlət tərəfindən həmin ölkələrə vəsait ayrılıb-ayrılmadığından xəbərsizdir.

"Onların məzarlarının təmir edilməsi, abidələrinin qoyulması Azərbaycan dövləti tərəfindən həyata keçirilir. Mühacir şəxsiyyətlərimizin, dövlət xadimlərimizin məzarları Azərbaycana köçürülərsə, bu zaman artıq xərclərə də ehtiyac qalmaz. Onların Azərbaycanda dəfn edilməsi daha vacibdir. M.Ə. Rəsulzadə, Ə.Topçubaşov, F.Xoyski, Ə.Ağaoğlu, Ə.Hüseynzadə kimi şəxsiyyətlərin məzarı Azərbaycanda olmalıdır və onlara möhtəşəm abidələr ucaldılmalıdır" - deyə F.Ələkbərli bildirdi.

***İradə SARIYEVA***

**Rusiya Çində istehsal olunan mobil telefonlarla bağlı qadağa tətbiq edib. Belə ki, Çində istehsal olunan "Xiaomi", "Vivo", "Realme", "Huawei", "ZTE" və "Lenovo" smartfonlarının Rusiyaya gətirilməsi dayandırılıb.**

# Azərbaycanın mobil telefon bazarında Çin virusunun təsirləri...

## *Kamran Məmmədov: "Elektronik məhsulların, o cümlədən, telefonların Çindən idxalının dayandırılması qiymət artımına səbəb olacaq"*



Bu qərarın qəbul edilməsi Çində tüğyan edən koronavirus epidemiyası ilə bağlıdır. Qeyd edək ki, bu qadağa müvəqqəti xarakter daşıyır.

Onu da qeyd edək ki, ABŞ-ın "Apple" şirkətinin Çindəki bütün mağazaları koronavirusla əlaqədar müvəqqət olaraq bağlanıb. Cənubi Koreyanın "Samsung Electronics" şirkəti də eyni addımı atıb. Onlar da Çində yayılmış koronavirusla əlaqədar bu ölkədəki ən iri satış mərkəzini müvəqqəti bağlayacaqlarını açıqlayıblar.

Analoji qaydanın ölkəmizdə də tətbiq olunması gözlənir. Danılmaz faktdır ki, Azərbaycanın elektronik bazarında Çin məhsulları üstünlük təşkil edir. Çindən elektronik məhsulların, telefonların idxalının dayandırılması, satışına qadağa qoyulması bu sektorda qiymət artımına səbəb ola bilər. Çində yayılan koronavirus epidemiyası Azərbaycanın telefon bazarında qiymət dəyişikliyinə səbəb ola bilərmi?

Onu da bildirək ki, bir neçə gün əvvəl Dövlət Gömrük Komitəsinin (DGK) sədri Səfər Mehdiyev jurnalistlərə açıqlamasında bildirib ki, Qida Təhlükəsizliyi Agentliyi Çindən bir sıra ərzaq məhsullarının gətirilməsini müvəqqəti olaraq qadağan edib. Bu ərzaq məhsullarının ölkəyə gətirilməsinə icazə verilmir.

İqtisadçı-ekspert Kamran Məmmədov bildirdi ki, Çində tüğyan edən koronavirus epidemiyası ilə əlaqədar nəinki telefon, həmçinin, digər məhsulların da qiymətində artım müşahidə olunacaq: "Ümumiyyətlə, Çindən gətirilən bütün məhsulların ixracatının müəyyən müddətə dayandırılması hazırda hədəfdədir. Dünya ölkələri Çin gömrüyü üzrə karantin elan edilməsinə nail olmaq istəyir. Yəni Ümumdünya Səhiyyə Təşkilatı, beynəlxalq təşkilatlar və ABŞ-ın əsas hədəfi budur. Bu yəqin ki Azərbaycana da ixracatın dayandırılmasına gətirib çıxaracaq. Çinin iqtisadi olaraq bloklanması, sözsüz ki, digər məhsulların da qiymətinin qalxmasına səbəb olacaq".

İqtisadçının sözlərinə görə, elektronik məhsulların, o cümlədən, telefonların Çindən idxalının dayandırılması qiymət artımına səbəb olacaq.

***Günel CƏLİLOVA***

---

**Ölkənin cənub bölgəsində müşahidə olunan güclü külək ciddi fəsadlara gətirib çıxarıb. Külək nəticəsində Lerikdə çoxsaylı işıq dirəyi aşıb. Artıq 4 gündür rayonun bir sıra kəndləri elektrik enerjisindən məhrum olublar.**

# Lerikin kəndləri zülmət içində - işıq dirəkləri ağacdan, üstəlik, külək də aşırıb...

## *Nəcəf Əhmədov: "Hər dəfə güclü külək olanda daha çox dirək aşır"*




Rayondan aldığımız məlumata görə, çoxsaylı işıq dirəyinin aşmasına baxmayaraq, onların bərpası istiqamətində işlər görülmür. Bu gedişlə rayonun bəzi yaşayış məntəqələrinin hələ bir neçə gün də işıqsız qalacağı gözlənir. Nəzərə alsaq ki, parlament seçkilərinə bir neçə gün vaxt qalıb, hələ də Lerik rayonunun ayrı-ayrı kəndləri işıqsızdırlar. Rayon sakinləri bildirirlər ki, küləyi bəhanə edib işıq dirəklərinin bərpası ilə əlaqədar, ümumiyyətlə, heç bir iş görülmür. Nəticədə sakinlər ölkədə və dünyada gedən proseslərdən xəbər tuta bilmirlər.

O da məlum oldu ki, küləyin belə böyük fəsadlara səbəb olmasının səbəbi işıq dirəklərinin bir çoxunun hələ də ağacdan olmasıdır. Məsələ ondadır ki, uzun illərdir rayonun ucqar dağ kəndlərinin elektrik dirəkləri yenilənmir. Dirəklər ağacdan olduğu üçün onların çoxu çürüyüb. Bir balaca külək əsən kimi, elektrik xətlərində açılmalar baş verir. Nəticədə hər dəfə kəndlər günlərlə, bəzən həftələrlə işıqsız qalırlar.

Güclü küləklə əlaqədar olaraq Kuman, Aran, Boykəndil, Kirəvud, Lələdulan, Ordahal, Musavar, Lələdulan, Soru, Ərdəbilə, Gürdəsər, Ləman, Lərmərud, Necü, Vamazgon, Davidoni, Haftoni, Əliabad və digər kəndlərdə elektrik enerjisi yoxdur. Sadalanan kəndlərdə elektrik dirəklərinin demək olar ki, hamısı ağacdandır. Bu səbəbdən rayon kəndlərinin çoxu 4 gündür zülmət içindədir.

Davidoni kənd sakini Nəcəf Əhmədovun sözlərinə görə, bundan əvvəl də bu cür küləklər olub və nəticədə işıq dirəkləri aşıb: "Ancaq hər dəfə elektrik dirəklərinin bərpası alayarımçıq xarakterli olub. Yamaq formasında bir sıra dirəkləri bərpa edirlər. Sonra yenə də bənzər problemlə üzləşirik. Bəzən elə olur ki, dirəklərin heç də hamısı bərpa edilmir. Hansı evdə yaşayış yoxdursa, həmin evlərin qarşısında yıxılan elektrik dirəkləri bərpa edilmir. Dəfələrlə şikayət etmişik, amma məhəl qoyan yoxdur. Hər dəfə güclü külək olanda daha çox dirək aşır. Çünki elektrik dirəklərinin əksəriyyəti ağacdandır. Hansı ki, işıq dirəkləri betondan, ya da dəmirdən olsaydı, külək onları aşıra bilməzdi".

*"İşıq dirəkləri betondan, ya da dəmirdən olsaydı, külək onları aşıra bilməzdi"*

Yaranmış problemlə əlaqədar gün ərzində bir neçə dəfə Lerik Rayon Elektrik Şəbəkəsi ilə əlaqə yaratmağa çalışsaq da, bu mümkün olmadı.

Yeri gəlmişkən onu da qeyd edək ki, Prezident İlham Əliyev Vüqar Əhmədovu "Azərişıq" ASC-nin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul edərkən bildirib ki, ucqar dağ kəndlərinin elektrik təminatına xüsusi tiqqət yetirilməlidir: "Gələcəkdə, xüsusilə ucqar dağ kəndlərində enerji təsərrüfatına da böyük diqqət göstərilməlidir. Çünki biz demək olar ki, bütün şəhərlərdə artıq yeni yarımstansiyaların, transformatorların quraşdırılması nəticəsində problemi həll etmişik, ancaq bəzi kəndlərdə dirəklər köhnədən qalıbdır. Mən o kəndlərdə olarkən görürəm ki, hələ də taxta dirəklər qalmaqdadır. Onları müasir dirəklərlə dəyişdirmək üçün əlavə tədbirlər görülməlidir".

Görünən odur ki, Lerikdə müvafiq qurumlar bununla bağlı problemlərin həllini sürətləndirməyə səy göstərmirlər. Bu yöndə səy göstərsəydilər, o zaman güclü külək rayonun elektrik təsərrüfatına bu qədər böyük zərər vurmazdı.

***Vidadi ORDAHALLI***

---

# Diaspor Gənclərinin III Yay Düşərgəsi keçiriləcək

**Diasporla İş üzrə Dövlət Komitəsi irimiqyaslı layihələrindən olan diaspor gənclərinin növbəti yay düşərgəsinə hazırlaşır. Bu barədə "Bakı-Xəbər"ə Dövlət Komitəsinin mətbuat xidmətindən bildirilib.**

Qeyd edilənə görə, "Könüllülər-2020" Azərbaycan Diaspor Gənclərinin III Yay Düşərgəsində iştirak etmək istəyən gənclərin artıq qeydiyyatına başlanıb. Yay düşərgəsi bu il iyulun 12-dən 19-na qədər Qusar şəhərində keçiriləcək.

Düşərgə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, Azərbaycan Respublikasında 2020-ci ilin "Könüllülər ili" elan edilməsinə həsr olunur.

Komitə artıq diaspor gənclərinin iki yay düşərgəsini uğurla həyata keçirib, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı və Azərbaycana dost münasibəti bəsləyən xalqların gənc nümayəndələri bu mühüm platforma ətrafında bir araya gələrək, Azərbaycanla daha yaxından tanış olub, eyni zamanda, şəbəkələşmək imkanı qazanıblar.

Hər il olduğu kimi, bu il də düşərgədə yaşı 18 ilə 29 arasında olan, Azərbaycan dilində ünsiyyət qurmağı bacaran gənclər iştirak edə bilərlər. Əvvəlki düşərgələrdə olduğu kimi, Diaspor Gənclərinin III Yay Düşərgəsində də iştirak ödənişsizdir.

***İradə SARIYEVA***

**Çində aşkarlanmış koronavirus bütün dünyanı narahat etməkdədir. Mənşəyi bilinməyən bu virus insanları təhdid edir, ölüm qorxusu ilə üz-üzə qoyur. Artıq dünyada koronavirus təhlükəsi ilə bağlı mübarizə tədbirləri gücləndirilib və ölkələr bu virusun sınırlarından içəri keçməməsi üçün çalışırlar.**

# Bakı apteklərində maska qıtlığı - Çin virusu biznesə mənfi təsirini artırır



**"Dokto":** *"Birdəfəyə 300-500 ədəd maska alanlar var"*

**"İslam":** *"Son zamanlar maskaya tələbat həddən artıq çoxdur"*

**"İstanbul":** *"Biz elə də böyük fərq hiss etmirik"*

**"Zeytun":** *"Koronavirus təhlükəsindən sonra tələbat artıb"*

**Aptek:** *"...bir neçə dəfə istifadə edilməsi mümkün olan maskalara..."*

Turustlərin, əcnəbi qonaqların, xüsusən də Çin Xalq Respublikasının vətəndaşlarının ölkəmizə intensiv olaraq səfər etməsi faktdır və Azərbaycanda da rəsmi dövlət səviyyəsində karonavirusa qarşı ciddi mübarizə tədbirləri gücləndirilib. Ölkənin sərhəd keçid məntəqələrindən, gömrüyündən tutmuş xəstəxanalara, ayrı-ayrı müəssisələrə qədər hər yer bu təhlükəli virusa qarşı mübarizəyə hazır vəziyyətə gətirilib.

Bəzi mütəxəssislər bu virusun Azərbaycana gəlmə təhlükəsinin az olduğunu, bəziləri isə ümumiyyətlə olmadığını deyir. Bakıda isə əhali bu virusdan həddindən artıq ehtiyatlanır və qrip oldular-olmadılar, maskalardan istifadə edirlər. Koronavirus təhlükəsi ilə bağlı xəbər yayılana qədər yalnız adi qripə yoluxanlar, zökəm olanlar maskalardan istifadə edirdisə, indi sağlam adamlar da küçəyə çıxanda, ictimai nəqliyyata minəndə belə maska taxır. Bu gün Bakının küçələrində, meydanlarda, parklarda, metroda, avtobuslarda, hətta idarə və müəssisələrdə belə maskalı gəzən şəxslər var, özü də həddindən artıq çox. Maska taxan insanların çoxu bunu profilaktik olaraq taxır və guya bununla özlərini müxtəlif mənşəli viruslardan qoruyurlar. Bu arada Bakı apteklərində maska qıtlığı yarandığı ilə bağlı məlumatlar da dolaşır. Çin virusundan ehtiyatlanan paytaxt sakinlərinin apteklərdən kütləvi olaraq maskaları alıb daşıdığı bildirilir. Hətta deyilənlərə görə, elə ailə var ki, indidəndən evində maska ehtiyatı ya yaradır ki, əgər işdi Çin virusu Azərbaycana gələrsə, maska almaq üçün evdən çölə çıxmasınlar.

Əhalinin apteklərdən kütləvi olaraq maska alması nəticəsində apteklərdə maska qıtlığı yaranıb. Bunu apardığımız araşdırma və sorğular zamanı özümüz də müşahidə etdik.

Sorğumuza 28 May Metro stansiyası ətrafında yerləşən apteklərdən başladıq.

Səməd Vurğun parkı yaxınlığında yerləşən "Dokta" aptekində apardığımız sorğu zamanı bildirdilər ki, Çin virusu təhlükəsi ilə bağlı xəbər yayıldıqdan sonra əhalinin maskaya tələbatı daha çox artıb. Sözügedən aptekdə satılan maskaların hansı ölkələrə, hansı firmalara aid olması, qiymətində hər hansı bir dəyişikliyin olub-olmamasını da soruşduq. Aptekdən bildirdilər ki, hazırda burada yalnız Çin istehsalı olan nazik maskalar satılır, qara rəngli maskaların qiyməti isə 10 qəpikdir. Depoda maskaların azaldığını deyən satıcıların sözlərinə görə, belə getsə, yaxın vaxtlarda maskaların qiyməti qalxacaq. "Bizdə hazırda satışda yalnız Çin istehsalı olan maskalardı və onların da qiyməti 10 qəpikdir. Başqa ölkələrin istehsalı olan maskalar qurtarıb. Əvvəlki həftələrə nisbətən maskaya tələbat artıb. Depoda da artıq maskanın azaldığı bildirilir"- deyə satıcı bildirdi.

28 May Metro stansiyasının qarşısında yerləşən digər "Dokto" adlı aptekin əməkdaşları da qeyd etdilər ki, son günlər maskaya tələbat artıb, bu da qıtlıq yaranmasına səbəb olub. Bu aptekdə həm Türkiyə, həm də Çin istehsalı olan maskaların satıldığını deyən satıcıların sözlərinə görə, bəzən apteklər tələbatı ödəyə bilmir:"Son zamanlar maskaya tələbat artıb. Artıq insanlar alanda bir-iki maska almır, bir dəfəyə 300-500 ədəd maska alanlar var. Sakinlər indidən ehtiyatlı olmaq istəyirlər. Koronavirus hər kəsi qorxudur. Maskaya tələbat artıb. Bu gün aptekə gələn 100 müştəridən 70-80-ni maska istəyir".

Qiymətlərə gəlincə, burada maskaların 20-30 qəpik olduğunu bildirdilər.

28 May Metro stansiyası yaxınlığında yerləşən "İslam" aptekdə də maskaya tələbatın artdığını bildirdilər. Bu aptekdə yalnız Almaniya istehsalı olan maskalar satılır və həmin maskanın qiyməti 20 qəpikdir. Aptek işçiləri qeyd etdilər ki, maska alanların sayı çoxalıb. "Son zamanlar maskaya tələbat həddən artıq çoxdur. Bizə maska ilə bağlı müraciət edənlərin sayı artıb. Maskalar cürbəcürdür, eləsi var qalındı, eləsi var çox nazikdir. Nazik və keyfiyyətsiz maskalar Çin istesalıdır, qalın maskalar isə əsasən Almaniya, Rusiya, Türkiyə istehsalıdır. Depo qiymətləri qaldırdığı üçün artıq bəzi apteklərdə də qiymətlər qaldırılıb, amma bizdə, hələ ki, maskalar köhnə qiymətə satılır, 20 qəpiyə".

28 May Metro stansiyasının içərisində fəaliyyət göstərən "Zeytun" aptekdən isə sorğumuza cavab olaraq bildirdilər ki, artıq aptekdə maska qurtarıb:"Dünən axşamdan bizim aptekdə maska qurtarıb, bu gün neçə müştərini əliboş yola salmağa məcbur qalmışıq. Əvvəlki günlərə nisbətən maskaya tələbat çoxdur. Metroya daxil olan insanların çoxu gəlib bizdən maska alıb taxdıqdan sonra metroya enir".

"Elmlər Akademiyası" metrostansiyasının yaxınlığında yerləşən bir çox apteklərə də baş çəkdik. Maraqlıdır ki, işçilər bizim suallara maraqla cavab versələr də, ad və soyadlarının gizli qalmasını xahiş edirdilər. Səbəbini soruşduqda isə onlar bunu aptekin biznes sirrinin mətbuata çıxmasında müdriyyətin maraqlı olmaması ilə izah edirdilər.

"İstanbul" aptekin əməkdaşları bildirdilər ki, ümumiyyətlə, həmişə qış fəslində maskaya tələbat böyük olur:"Biz elə də böyük fərq hiss etmirik. Həmişə qış aylarında maskaya tələbat çox olur. Bizdə iki növ maska satılır, qiymətləri isə 15 və 10 qəpikdir. Maraqlıdır ki, bu gün insanlar qrip virusuna qarşı dərmanlara deyil, maska almağa meyl edir".

Bu məkanda yerləşən "Zeytun" aptekdən də bildirdilər ki, maskaya tələbat artıb:"Koronavirus təhlükəsindən sonra tələbat artıb və maska alanlar çoxdur. Amma qiymətdə heç bir dəyişiklik edilməyib, əvvəl hansı qiymətə satılıbsa, indi də o qiymətə satırıq"

Üzərinə sadəcə "Aptek" yazılan müəssisədən isə bildirdilər ki, maskaya tələbat artıb, bu da həm depoda, həm də apteklərdə qıtlıq yaradıb. "Əvvəllər bir neçə firmaya, ölkəyə aid maskalar satırdıq. Amma indi əsasən Çin və Türkiyə istehsalı olan maskalar satışdadır. Əməlibaşlı qıtlıq yaranıb. Müştərilərin birdəfəlik istifadə üçün yararlı olan maskalardan daha çox, bir neçə dəfə istifadə edilməsi mümkün olan maskalara tələbatı artıb. Yəni elə ölkələr var ki, orada istehsal edilən maskaları yuduqdan sonra təkrar istifadə etmək olar. Amma bizdə o maskalardan yoxdur"- deyə aptekdən bildirdilər.

Qeyd edək ki, bəzi ekspertlərin fikrincə, maskaya tələbatın artması işbazların hərəkətə keçməsinə səbəb olacaq. Bəzilərinin bundan istifadə edərək qiymət artımına yol verəcəyini deyən ekspertlərin sözlərinə görə, artıq bəzi apteklər "depo qiyməti qaldırıb, biz də qaldırmalıyıq" yolunu tutublar.

İnsanların Çin virusuna qarşı mübarizə apardığı bir dövrdə yerli apteklərin çoxunun Çin istehsalı olan maskalarla "silahlanması" da diqqət çəkir. Çin mallarından imtinanın başladığı bir dövrdə yerli depolardan apteklərə qiyməti cəmi 10-15 qəpik olan Çin istehsalı maskaların verilməsi halları var, özü də geniş yayılıb. Hər halda, insanlar hansı ölkənin istehsalı olmasından asılı olmayaraq maska almaqda davam edir...

***İradə SARIYEVA***

№ 20 (4151) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

5 FEVRAL 2020-ci il

www.baki-xeber.com



# Bildirçin "İlin quşu" seçildi

**Portuqaliyalar və ispanlar adi bildirçini 2020-ci ilin quşu seçiblər. "AZƏRTAC" bildirir ki, bildirçin Portuqaliya Quşları Öyrənmə Cəmiyyəti (SPEA) ilə İspaniya Ornitologiya Cəmiyyəti (SEO/BirdLife) tərəfindən təşkil edilmiş səsvermədə seçilib.**

SPEA tərəfindən açıqlanmış bəyanatda deyilir ki, bildirçin Portuqaliyada hələ də adi quş hesab edilir. Lakin ölkədə çöllərin təbii müxtəlifliyinin yoxa çıxmasının qarşısının alınması istiqamətində tədbirlər görülməsə, bu quş tezliklə daha adi hesab edilməyəcək. Portuqaliyanın kənd təsərrüfatı praktikasında dəyişikliklərin baş verməsi, ovçuluq, iqlim dəyişmələri nəticəsində son on ildə ölkədə bildirçinlərin yayılma arealı 30 faiz azalıb. Bu quş tum, dənli bitkilər və xırda onurğasızlarla qidalanır. Kənd təsərrüfatında herbisidlərin və insektisidlərin geniş istifadə olunması da bu quşun populyasiyasına mənfi təsir göstərib. İberiya bildirçininin populyasiyası Qərbi Avropada əhəmiyyətli məsələlərdən biridir. Son 20 ildə İspaniyada bildirçinlərin sayı 70 faiz azalıb, Portuqaliyada isə bu növün sayı 100 mindən çox deyil.

## Çox barmaqlı "cadugər"...

**Doğuşdan xəstəliklə dünyaya gələn qadını görünüşünə görə cadugər adlandırırlar. "Medicina.az" bildirir ki, Kumari Nayak nadir görülən xəstəlikdən əziyyət çəkir.**



Hindistanlı qadının əlləri və ayaqlarında ümumilikdə 31 barmağı var. Barmaqların 19-u ayaqda, 12-si isə əllərindədir. O dünyanın ən çox barmağı olan şəxsi kimi Ginnesin Rekordlar Kitabına düşüb. Qadının gündəlik həyatı onun xəstəliyinə görə xeyli çətinləşib. O, vəziyyətinə görə ömür boyu evdə qalmağa məcbur olub. Onun tibbi yardım almağa gücü olmayıb. Qonşuları isə onun görünüşündən qorxur və onu küçədə görəndə qaçırlar. Onlar Kumarinn batil inanclarına görə cadugər olduğuna inanırlar. Haqqında mediada yazılar dərc olunduqdan sonra, Hindistan hökuməti ona ev və maaş təklif ediblər. Bundan əlavə, hökumət qonşuları maarifləndirərək Kumarinin görünüşünün əslində tibbi bir xəstəlik səbəbindən olduğunu başa salır.

## Elan

Məmmədova Lumu Babək qızının adına, Bakı şəhəri, Səbail rayonu, İbrahim Məmmədov küçəsi, ev 2a, mənzil 66 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.

## Alimlərdən 2100-cü ilə dair şok proqnozlar

**Atmosferdə karbon qazının artması ilə bəşəriyyətin intellektual qabiliyyəti azalır. "Milli.Az" xəbər verir ki, karbon qazı qlobal istiləşməyə təsir edir. Nəticədə, Yer kürəsində orta temperaturun səviyyəsi getdikcə yüksəlir. Bu isti qazın haradan gəldiyindən asılı olmayaraq, iqtisadi fəaliyyət və ya təbii proseslər nəticəsində iqlim bəzi yerlərdə pisləşir.**

Kolorado və Pensilvaniya Universitetlərinin Amerika klimatoloqları karbon qazının birbaşa insanlara və bəşəriyyətə təsir etdiyini müəyyənləşdirib. Atmosferdə isti qaz səviyyəsinin artması ilə intellekt səviyyəsi də azalır - ilk növbədə uşaqlar və yeniyetmələrdə. Məktəblilər və tələbələr isə dərslərini daha pis öyrənməyə başlayır, materialı çətinliklə mənimsəyirlər. Və bu, onların əvvəlki nəsildən daha çox savadsız olacağını bildirir. Alimlər Amerika Geofizika Birliyinin son konqresində açıqlanan nəticələri "Phys.org" saytına təqdim edib. Hazırlanan hesabatda vurğulanıb ki, karbon qazının konsentrasiyası vacibdir. Məruzənin müəllifləri iddia edir ki, karbon dioksid konsentrasiyası insanların idrak qabiliyyətinə mənfi təsir edəcək qədər yüksəkdir. Modelləşdirmə göstərib ki, tullantıları azaltsaq da, 2100-cü ilə qədər bəşəriyyətin intellekt səviyyəsi 25 faiz azalacaq. Heç bir şey edilməzsə, yəni karbon qazı tullantılarını hazırkı səviyyədə buraxsaq, zəkanın azalması 50 faiz düşəcək. Raqnar Friş İqtisadi Tədqiqatlar Mərkəzinin Norveç alimləri - Brent Bratsberq və Ole Roqeberq - bir neçə onilliklər ərzində 730 min IQ testinin nəticələrini araşdırıb. Məlum olub ki, insanların zəka səviyyəsi ildən-ilə azalır. Yeni Zelandiyadan olan psixoloq Ceyms Flin isə XX əsrin birinci yarısında IQ göstəricilərinin durmadan artdığını irəli sürmüşdü. Flin insanların daha yaxşı yaşamağa başlaması ilə onların daha ağıllı olduğuna inanırdı. İndi trend tam əksinə dəyişib. İnsanların intellekt səviyyəsi aşağı doğru gedir. Alimlərin fikrincə, 1970-2009-cu illər arasında hər bir sonrakı nəsil orta hesabla 7 bal itirib. Yeri gəlmişkən, Ulster Universitetinin psixoloqu Riçard Lin illərlə amerikalılar, avropalılar və avstraliyalıların intellektual testlərinin nəticələrini təhlil edib, illər üzrə orta dünya IQ göstəricilərini hesablayıb. Onun sözlərinə görə, 2014-cü ilə qədər nəticələr 1950-ci illə müqayisədə cəmi 3 bal azalıb. Alim iddia edir ki, bu, dərəcələr davam edərsə, 2110-cu ilə qədər bəşəriyyətin orta IQ səviyyəsi 84 baldan artıq ola bilməyəcək. Bu da orta IQ səviyyəsi deməkdir. Məruzə müəlliflərinin karbon qazının zərərli təsiri ilə bağlı proqnozları - zəkanın 50 faizə qədər azalması isə artıq aşağı IQ səviyyəsidir. Lin intellektual səviyyənin aşağı düşməsinin səbəblərini,ümumiyyətlə, axtarmayıb. Lakin Bratsberq və Roqerberq "tərs Flin effekti"nin əks səbəbləri olduğunu irəli sürüb. Yəni, ətraf mühit pisləşir, qidalanma, sağlamlıq və təhsil səviyyəsi azalır. Bu da intellekti inkişaf etdirmək istəyini stimullaşdırmır. Və nəticədə intellekt səviyyəsinin aşağı düşməsinə səbəb olur. Bəlkə də səbəb karbon qazıdır? Əsas səbəbkar Kolorado və Pensilvaniya klimatoloqları tərəfindən təklif olunan ümumi "nəzəriyyə" ilə uyğun gəlir. Qeyd edək ki, XX əsrin ortalarında müşahidə olunan IQ artması "Flin effekti" adlanır. Bu effektə əsasən, insan nəsli artdıqca IQ səviyyəsi də yüksəlir. Nəzəri olaraq belə hesablanmışdı ki, insanların ağıllanmasına təsir edən faktorlar qidalanma, səhiyyə və təhsilin artmasıdır. Ancaq norveçli elm adamları bunun əksini sübut ediblər.





**Qoç** - Ən zəif müqavimət yolunu seçin və hadisələrin müstəqil inkişaf etməsinə mane olmayın. Yaşam sizdən aktiv və sürətli qərarlar tələb edir. Yaşananlara ciddi yanaşın. Borc vermək və ya borc almaq məsləhət deyil.



**Buğa** - Münasibətlər, maliyyə məsələləri və borc problemləri ön plana çıxır. Bəzi qərarları yeniləri ilə əvəzləmək zamanıdır. İki bənzər variant arasında seçim etmək asan deyil.



**Əkizlər** - Kiçik problemlər və xırda çətinliklər əhvalınızı pozmasın. İstənilən uğursuzluqları ürəyinizə salmayın. Güzəştə getməyə çalışsanız da, sizi başqalarının istəklərini anlamaq istəməyən eqoist hesab edirlər.



**Xərçəng** - "Sağ ol" eşitmək pis olmazdı. Günün ikinci yarısında yaradıcılıq potensialı yüksəkdir. Yaşamınızı daha aktiv və maraqlı edin. Yeni maraq arayın. Həmfikirlə yanaşı, dost olacaq insanla qarşılaşa bilərsiniz.



**Şir** - Anlaşma və müqavilələr, alış-veriş üçün vaxt ayıra bilərsiniz. Kommersiya fəaliyyəti üçün əlverişli zamandır. Dəvət aldığınız tədbirə qatılın. Yeni tanışlıqlar istisna deyil.



**Qız** - Uğurlu gündür. Zərurət yaranarsa, maraqlarınızı asanlıqla müdafiə edə bilərsiniz. Məntiqi arqumentlərin sayəsində mübahisədə qarşı tərəfi üstələyin. Yaxın ətrafınızdakı insanlar fikirlərinizi bölüşməsələr də, münaqişəyə başlamayın.



**Tərəzi** - Tərəfdaşlarınızı diqqətlə dinləyin. Bu gün yaxşı məsləhətlə bahəm, sizi çoxdan bəri narahat edən suala cavab ala bilərsiniz. Ciddi problemləriniz varsa, məşvərət almaq üçün əlverişli gündür.



**Əqrəb** - İstirahəti unudaraq fəal çalışın. Ünsiyyəti məhdudlaşdırın, ümumi maraqlarınız olan insanla birgə fəaliyyətin prinsiplərini razılaşdırın. Bu gün introvert əhvaldasınız. Gələcəklə bağlı planlar qurun.



**Oxatan** - Şəxsi münasibətlərdəki situasiyanı müzakirə edin. Problemləri aşkarlayaraq onları aradan qaldırmağın yollarını düşünün. Hisslərdə romantika qıtlığı yax. Mühüm qərarların qəbulunda məntiqli davranın.



**Oğlaq** - Yaxın ətrafınızda mühüm hadisələrin ərəfəsi başlanır. Proseslərin mərkəzində olmağa çalışın. Aldığınız məlumatları təhlil edin ki, yaşanan olaylar sizi naqolay vəziyyətdə qoymasın.



**Dolça** - Səfər, çoxdan bəri ünsiyyətdə olmadığınız insanla təmasların bərpası üçün yaxşı vaxtdır. Yarımçıq işi başa vurmaq, kiçik təmirlə məşğul olmaq olar. Əyləncələr romantik hisslər yaratmayacaq.



**Balıqlar** - Yaxın gələcəyin proqnozlaşdırılması və planlaşdırılması üçün əlverişli zamandır. Cari hadisələri anlamaq və yeni ideyalar formalaşdırmaqda sizə yardımçı ola biləcək insanlarla ünsiyyətdə olun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Yaşlı fransız qadının mətbəxindən intibah dövrünün rəsm əsəri tapılıb

**İncəsənət tarixçiləri Paris yaxınlığında yaşayan yaşlı bir qadının mətbəxindən "İntibah dövrünün atası" adı verilən florensiyalı rəssam Çimabuenın rəsm əsərini tapdıqlarını bildirib.**

"Trend" bildirir ki, qədim rəsm sənətkarları üzrə mütəxəssis Erik Terkin 13-cü əsrə aid "Məsihin işgəncəsi" adlı taxta panelindəki temperanı 4-6 milyon avro dəyərində qiymətləndirib. "Acteon" auksion evinin rəhbəri Dominik Le Koent-de Belye, qadının qocalar evinə yerləşdirildikdən sonra həmkarının əsərin orijinallığını müəyyən etmək üçün hakim tərəfindən dəvət edildiyini bildirib. Auksion evi Çimabuenin əsərlərinin nadirliyini nəzərə alaraq, qovaqdan olan paneldəki temperanın tapılmasını "Qərb sənət tarixinin əsas kəşfi" adlandırıb. Əsər, Çimabuenin Məsihin "işgəncəsini və çarmıxa çəkilməsini" təsvir edən və 1280-ci ildə yaranan səkkiz rəsmdən ibarət silsilənin bir parçasıdır. Bu silsilənin əsərlərindən olan başqa iki rəsm - "Məryəm, körpə və İki mələk" Londondakı Milli Qalereyada və "Məsihin İncisi" Nyu-Yorkdakı "Frick Collection" adlanan şəxsi kolleksiyada yerləşdirliblər.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.